www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 noyabr 2016-cı il Çərşənbə № 266 (6587) Qiyməti 60 qəpik

**Xəbər**

**Bakıda yanğın bir ailəni külə döndərdi-hadisə yerindən təfərrüatlar**

yazısı səh.3-də

## Gündəm

**Gözlənilənlər oldu-qaz və işıqdan sonra daha nələr bahalaşır?**



Bütün ərzaq, kənd təsərrüfatı və nəqliyyat xidmətlərində qiymətlərin bahalaşması qaçılmazdır; qaz və işığa "israfçılıq izahı"na ekspertlər nə deyir?

yazısı səh.6-da

**Nəhs "13-lər"-milyonçu nazir müavininin üzv olduğu Tarif Şurası...**

yazısı səh.7-də

**Rusiya Hələbi məhəllə-məhəllə Əsədə qaytarır**

yazısı səh.12-də

**Erməni terrorçulara Tuncelidə abidə qoyulması məsələsi böyüdü**

yazısı səh.9-da

**DYP rəisinin oğlunun qəza törətməsi xəbərinə rəsmi reaksiya**

yazısı səh.3-də

**Abşeron rayonunda tədbir keçirildi: Xırdalan 10 il...**

yazısı səh.5-də

**Evlərdə gəzən ölüm-dəm qazı...**

yazısı səh.14-də

**Azərbaycanlı gənclə rusiyalı milyarder qızının müəmmalı avtoqəzası**

yazısı səh.13-də

**Müxalifət xalqı meydanlara çıxmamaqda suçlayır**

yazısı səh.15-də

**Saxta avro satanlar tutuldu**

yazısı səh.10-da

**Məmur-oliqarxlar həbsxanaya gedir- "qara dustaq" kef çəkəcək**

yazısı səh.13-də

## Düşmən ölkəyə löngiyən ilk səfərin ilginc pərdəarxası

# ERMƏNİSTAN İRAN PREZİDENTİNİN HƏSRƏTİNDƏ - BAKI AMİLİ...

Prezident İlham Əliyevə minnətdarlıq göndərən Həsən Ruhani Sərkisyanla görüşə niyə tələsmir? **erməni şərhçi:** "Əlimizdəki qandallar qaldıqca, Tehranla əlaqələrdə uğur olmayacaq"; **azərbaycanlı ekspert:** "Azərbaycanın İrandan ən böyük gözləntisi odur ki..."



yazısı səh.11-də

# Parlamentdə anti-Rusiya bəyanatları

Deputatlar baş prokuror Zakir Qaralovun təhqir və böhtana qarşı cəzaların sərtləşdirilməsi barədə təşəbbüsünü də dəstəklədi; müzakirələrdə ölüm cəzasının bərpası təklif olundu

yazısı səh.4-də



**Öz qohumunu həbs etdirən məmurun sirləri açılır - sensasion detallar**

yazısı səh.10-da



**Lukaşenkonun səfəri-Belarus Qarabağa dəstək əvəzinə nə istəyir?**

yazısı səh.8-də



**Şeyx məscidlərə axund təyin edə bilmir-səbəb**

yazısı səh.7-də



## İcra başçıları haqqında yeni fərman verildi

**Prezident İlham Əliyev 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə fərman imzalayıb.**

Fərmana əsasən "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.5.2-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilir və aşağıdakı məzmunda 3.5.2-1-ci yarımbənd əlavə edilir: "3.5.2-1. müvafiq ərazidə fəaliyyət göstərən malların istehsalçıları və onların istehsal etdikləri mallar barədə məlumatların Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 sentyabr tarixli 2349 nömrəli sərəncamı ilə yaradılmış internet portalında yerləşdirilməsinin təmin edilməsi istiqamətində təşviqedici tədbirlər həyata keçirir və yenilənərək aktual saxlanmasına nəzarət edir".

## İcbari tibbi sığortanın tətbiqinə dair pilot layihəyə 30 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalayıb.**

APA-nın məlumatına görə, Maliyyə Nazirliyinə pilot layihənin həyata keçirilməsi üçün 2016-cı il dövlət büdcəsinin səhiyyə sahəsində islahatlar üçün nəzərdə tutulmuş 10 milyon manat vəsaitin 10 gün müddətində agentliyə ayrılmasını təmin etmək, habelə 2017-ci il üçün dövlət büdcəsinin səhiyyə sahəsinə aid olan digər tədbirlər üçün nəzərdə tutulmuş 20 milyon manat vəsaitin dövlət büdcəsi təsdiq olunduqdan sonra 2017-ci ilin yanvar ayı ərzində agentliyə ayrılmasını təmin etmək tapşırılıb.

## Gürcüstan hökuməti xalqı sevindirdi- dollarla kredit götürənlər lari ilə qaytaracaq

Gürcüstan hökuməti Milli Bankla birgə larilaşma planı hazırlayıb. APA-nın "Georgia Online" saytına istinadən verdiyi məlumata görə, bunu Gürcüstanın baş naziri Georgi Kvirikaşvili bəyan edib. O bildirib ki, 2015-ci ilin yanvarınadək dollarla kredit götürən vətəndaşlar kreditlərini lariyə çevirə biləcəklər. Baş nazir həmçinin qeyd edib ki, vaxtından öncə kredit borclarını ödəyənlər faizlərdən azad olunacaqlar.

## "Amerikanın səsi" və AzadlıqRadiosunun saytları niyə işləmir?

**Azərbaycanda "Amerikanın səsi" və AzadlıqRadiosunun saytları iki gündür bağlıdır. ("Turan"). Rabitə Nazirliyi, Elektron Təhlükəsizlik Mərkəzi və ölkədə əsas internet təchizatçısı olan «Deltatelekom» firması baş verənlər haqqında şərh vermir. Ölkə hüdudlarından kənarda saytlara çıxış açıqdır.**

Rəsmi orqanların baş verənləri izah etmir.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Elmar Məmmədyarov həmsədrlərin dəyişdirilməsindən danışdı

**"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin dəyişdirilməsi danışıqlar prosesinə təsir etməyəcək".**



Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov brifinqdə deyib.

"Bunun danışıqlar prosesinə təsir edəcəyini düşünmürük. Parisə səfər zamanı Fransadan olan yeni həmsədrlə görüşmək imkanım oldu. Bu adam təcrübəlidir və münaqişə barədə dərin bilikləri var. Ceyms Uorlik Hamburqda bizimlə son görüşünü keçirəcək. Bundan sonra o, özəl sektora gedəcək. ABŞ-da yeni administrasiyanın formalaşmasından sonra yeni həmsədrin kim olacağını biləcəyik" - E.Məmmədyarov bildirib. Nazir həmçinin avropalı bir qrup alimin Azərbaycanın işğal olunmuş ərazisində yerləşən Azıx mağarasına baş çəkməsinə münasibət bildirib. Onun sözlərinə görə, Azərbaycan bu məsələni araşdırır və buna lazımi hüquqi qiymət verməlidir.



## Rəşad Məcid 3 ay mətbuata danışmayacaq

**"Özümə 3 aylıq moratorium qoymuşam". Bunu moderator.az-a açıqlamasında "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid bildirib. Rəşad Məcid deyib ki, bu 3 ay ərzində heç bir mətbu orqana açıqlama, müsahibə verməyəcək.**

## Bakı-Moskva aviareyslərinin sayı artırılır

**"Azərbaycan Hava Yolları" QSC (AZAL) 2017-ci ilin mart ayından etibarən Heydər Əliyev Beynəlxalq Hava Limanından Moskva şəhərinin "Vnukovo" Hava Limanına hər gün iki reys yerinə yetirəcək.**

Bu barədə musavat.com-a qurumun mətbuat xidmətindən məlumat verilib.

Məlumatda deyilir ki, müvafiq sazişi AZAL aviaşirkətinin vitse-prezidenti Eldar Hacıyev və "Vnukovo" Hava Limanının baş direktoru Vasiliy Aleksandrov dünən Moskvada imzalayıblar.

Heydər Əliyev Beynəlxalq Hava Limanından uçuş yerli vaxtla saat 08:00-da və 16:30-da, Moskvaya eniş saat 10:10-da və 18:40-da, "Vnukovo"dan uçuş yerli vaxtla saat 11:10-da və 19:40-da, Bakıya eniş yerli vaxtla saat 15:00-da və 23:30-da baş tutacaq.

Moskvaya reyslər "AZALJET" aşağı büdcəli brend altında "Airbus A319" laynerləri ilə həyata keçirilir.

Hazırda "Azərbaycan Hava Yolları" Rusiyanın 4 şəhərinə müntəzəm reyslər həyata keçirir. Belə ki, "Vnukovo" Hava Limanı ilə yanaşı, "AZALJET" Moskvanın "Domodedovo" Hava Limanına, Sankt-Peterburq ("Pulkovo"), Minvodı və Kazana reyslər yerinə yetirir. Həmçinin, Gəncədən Sankt-Peterburqa müntəzəm aviareys yerinə yetirilir.



## QHT Şurası 2017-ci il qrant müsabiqəsinin qayda və şərtlərini təsdiq etdi

**Noyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının növbəti iclası keçirilib. Şura sədrinin müavini Vüsal Quliyev iclası açaraq gündəliyə təklif olunan şuranın 2017-ci il qrant müsabiqəsinin qayda və şərtləri haqqında məsələni elan edib. Gündəlik yekdilliklə təsdiq olunub.**

Şura katibliyinin icraçı direktoru Fərasət Qurbanov şuranın əsasnaməsinə və QHT-lərə dövlət dəstəyi Konsepsiyasına uyğun olaraq qurumun 2017-ci il qrant müsabiqəsinə təklif olunan mövzular, şərtlər, qaydalar və yenilənmiş elektron proqram təminatı haqqında məlumat verib. İcraçı direktor şuranın 2017-ci il qrant müsabiqəsinin mövzularının müəyyən edilməsi məqsədilə yüzlərlə QHT-nin iştirakı ilə keçirilmiş ictimai müzakirədə səsləndirilən rəy və təkliflərin nəzərə alındığını bildirib.

Şura üzvləri Nərgiz Xələf, İlqar Məmmədov, Emin Həsənli Şahin İsmayılov, Əliməmməd Nuriyev və Rufiz Qonaqov 2017-ci il qrant müsabiqəsinin mövzuları, şərtləri, QHT-lərin layihələrin qəbulu üzrə elektron xidmətlə bağlı təlimatlandırılması və digər məsələlərlə bağlı təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra 01 dekabr 2016-cı il tarixdə şuranın 2017-ci il üçün qrant müsabiqəsinin elan olunması haqda qərar qəbul edilib.

❑ Musavat.com

## 42 yaşlı qadın özünü asdı

**Masallı rayonunda intihar hadisəsi baş verib. Hadisə rayonun Təzəkənd kəndində qeydə alınıb. (APA) Kənd sakini 1974-cü il təvəllüdlü Günəş Təvəkkül qızı Məcidova yaşadığı evdə özünü asıb.**

İntiharın səbəbi məlum deyil.

Faktla bağlı rayon prokurorluğunda araşdırma aparılır.

## "Lotu Bəxtiyar"ın bibisi oğlu tutuldu

**Şirvanda kriminal avtoritetin üzərindən narkotik vasitə olan heroin götürülüb. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Şirvan Dövlət Yol Polisi İdarəsinin (DYP) əməkdaşları Bakı şəhər sakini, S.Rəhimov küçəsi 14 ünvanında yaşayan 1967-ci il təvəllüdlü Mikayılov Vahid Qəzənfər oğlunun idarə etdiyi "Kia Serato" markalı, 90 UN 616 dövlət nömrə nişanlı avtomobili Şirvanda saxlayıblar. Polis şöbəsinə dəvət olunan sürücünün üzərinə baxış keçirilərkən ondan 33,778 qram narkotik vasitə olan heroin aşkarlanıb.**

Əvvəllər dəfələrlə məhkum olunan, kriminal aləmdə "Sonanın nəvəsi" kimi tanınan V. Mikayılov ümumilikdə 20 il cəzaçəkmə müəssisələrində cəza çəkib. O, məşhur avtoritet "Lotu Bəxtiyar"ın bibisi oğludur.



## Zakir Həsənov Rusiyaya gedib

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının noyabrın 30-da keçiriləcək növbəti iclasında iştirak etmək üçün Rusiyaya yola düşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA -ya verilən məlumata görə, səfər çərçivəsində müdafiə nazirinin rusiyalı həmkarı, ordu generalı Sergey Şoyqu ilə görüşü də planlaşdırılıb.

Görüşdə ölkələr arasında hərbi əməkdaşlığın müxtəlif aspektləri, regional təhlükəsizlik məsələləri müzakirə olunacaq. Həmçinin Azərbaycan və Rusiya Müdafiə nazirlikləri arasında 2017-ci il üçün əməkdaşlıq planının imzalanması nəzərdə tutulub.

Bundan əlavə, Z.Həsənovun bir sıra ölkələrin müdafiə nazirləri ilə görüşləri də gözlənilir.

## Gürcüstanda 20 məscid müsəlman icmasının ixtiyarına verilib

**Gürcüstanda 20 məscid müsəlman icmasının ixtiyarına verilib. "Novosti Qruzii" saytının verdiyi məlumata görə, müvafiq qərar Din məsələləri üzrə Dövlət Agentliyinin dini icmaların əmlak və maliyyə məsələlərini araşdıran komissiyasının iclasında qəbul olunub.**

Sözügedən məscidlərin əksəriyyəti ölkənin qərb hissəsində yerləşir.

Toplantıda müsəlman icmasının qaldırdığı 24 məsələnin hamısı təmin olunub.

Qeyd olunub ki, hazırda Gürcüstanda 250-dən çox məscid fəaliyyət göstərir. Artıq 150 məscid müsəlman icmasının ixtiyarına verilib. Yerdə qalan məscidlərin müsəlmanların ixtiyarına verilməsi istiqamətində işlər davam etdirilir.

## İranda İŞİD komandiri öldürülüb

**İranda İŞİD komandirlərindən biri öldürülüb. Bunu İranın təhlükəsizlik naziri Mahmud Ələvi deyib.**

M.Ələvi bildirib ki, Əbu Aişə Kürdi adlı şəxs təxribat törətmək məqsədilə ölkəyə girmək istəyib, lakin xüsusi xidmət orqanlarının həyata keçirdiyi əməliyyat zamanı zərərsizləşdirilib. (APA).

Nazir terrorçu qruplaşma üzvlərinin aşkara çıxarılmasının çətin olmasına rəğmən, müvafiq strukturların bu işin öhdəsindən gəldiyini, kamikadzelərin müəyyənləşdirildiyini və partlayıcı qurğuların aşkarlanaraq zərərsizləşdirildiyini bildirib.

YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

**Noyabrın 29-da gecə saat 2 radələrində Bakıda bir ailənin faciəsi ilə nəticələnən yanğın hadisəsi baş verib. Nizami rayonunda sovet dövründən tikintisi yarımçıq qalmış yaşayış binasında baş verən yanğın qısa zamanda 4 ailənin yaşadığı 97 kvadrat metr əraziyə yayılıb.**



# Bakıda şok olay - yanğın bir ailəni külə döndərdi

## Qısa qapanma 4 köçkünün - ata-ana və iki azyaşlının həyatına son qoydu; onlarla insan evsiz qaldı...

Dəhşətli yanğın zamanı bir ailənin üzvləri olan 1983-cü il təvəllüdlü Seymur Əkbər oğlu Babaşov, həyat yoldaşı - 1986-cı il Cəvahir Əlövsət qızı Babaşova və övladları 2005-ci il təvəllüdlü Fərhad Seymur oğlu Babaşov, 2007-ci il təvəllüdlü Elşad Seymur oğlu Babaşov yanaraq həyatlarını itiriblər. Hadisə barədə daha ətraflı məlumat əldə etmək üçün dünən yanğın baş verən əraziyə olduq.

Faciə yaşanan gün səhər saatlarında hadisə yerinə Nizami rayonunun icra başçısı Arif Qasımov, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov və digər rəsmi şəxslər gəliblər. Onlar digər köçkünlərlə görüşüb, durumları ilə maraqlanıblar.

**Söhbət etdiyimiz Etibar Nəbiyev - yarımçıq binanın sakini bildirdi ki, yanğınsöndürənlər zamanında gəlməsəydi, digər 22 ailənin də mənzili yanaraq kül olacaqmış:** “Gecə səsə ayıldıq, gördük ki, bina alışıb. Ancaq yanğın nəticəsində bizim mənzilə zərər dəyməyib. Burada Füzuli, Ağdam və digər işğal olunmuş rayonların sakinləri məskunlaşıblar. 1993-cü ildən etibarən burada yaşayan ailələr var. Hadisə zamanı rəhmətə gedənlər Füzuli rayonundan məcburi köçkün idilər. Çox gözəl, gənc ailə idilər. Yanğın elə onların mənzilindən başladığı üçün imkan edib çölə çıxa bilməyiblər. Nəticə də məlumdur... Əli Həsənov bizimlə görüşü zamanı bildirdi ki, bu bina əslində özəldir. Buranı alıblar. Söylədi ki, həmin şəxslərlə də danışacam, buranı söküb yerində hündürmərtəbəli bina tikəcəyik. Söylədi ki, hazırda burada məskunlaşanlara bina tikilən müddətdə başqa yerdə kirayə qalmaları üçün ödəniş olunacaq. Bildirdilər ki, binanın tikintisi başa çatdıqdan sonra oradan sizə də mənzil veriləcək. İcra hakimiyyətindən də çox razıyıq. Onlar da gəlib maraqlanıb, bizə nə yardım lazımdırsa, edəcəklərini bildirdilər”.





Yanğın baş verən binanın dörd tərəfi göydələnlərdir. Göydələnlərin arasında qalan bu yarımçıq binada yaşamaq heç də asan deyil. Binaya daxil olmaq üçün təxminən 2 metr aşağı düşmək lazımdır. Yəni bina torpaq örtüyündən təxminən 2 metr aşağıda yerləşir. Bu baxımdan, yanğın baş verən zaman oradan qurtulmaq çətin məsələdir. Sakinlər söylədilər ki, qış aylarında binada nəmişlik, yayda da həşəratlar əlindən yaşamaq çətindir.

Onu da qeyd etdilər ki, nə qədər çətinlik olsa belə, məcburiyyətdən hər kəs özünə müəyyən şərait qurub, burada yaşayırdı. Binanın qaz xətti yoxdur. Ona görə də yanğının qazdan baş verməsi ehtimal olunmur. Elektrik xətti isə binanın özü kimi köhnədir. Bu baxımdan, hesab olunur ki, yanğın qısa qapanma nəticəsində baş verib.

**Hadisə nəticəsində faciəvi şəkildə məhv olan ailədən başqa, digər iki ailənin də mənzili yanıb. Ərazidə olduğumuz zaman onlar binanın yanan daşları arasında gəzişir, yanmayan əşyalarını axtarırdılar. Hadisənin şokundan hələ çıxmayan sakin Əfqan Məmmədovla söhbətimiz zamanı öyrəndik ki, onların bütün əşyaları yanaraq kül olub:** “Dünən gecə dam örtüyünün yanmasının səsinə ayıldıq. Gördük ki, binanı alov bürüyüb. Təkcə əynimizdəki paltarı çıxara bildik. Biz çölə çıxan kimi tavan uçdu. Bir qədər də geciksəydik, biz də içəridə qalıb öləcəkdik. Ailədə 4 nəfərik. 2 övladım hazırda cəbhə zonasında hərbi xidmətdədir. Yoldaşımla mən isə bax bu cür şəraitdə yaşayırıq”.

**Sakinlər gecəni harada keçirəcəklərini bilmirlər:** “Bizi başqa yerə köçürmədilər. Dedilər ki, sabah işə baxıb, qalmanız üçün yer verəcəyik. İndi biz də yoldaşımla daşın üstündə oturub gözləyirik. İnanın ki, ayağımdakı ayaqqabını, başımdakı papağı belə qonşular verib. Heç əynimizin paltarını da çıxara bilməmişik. 1997-ci ildən burada yaşayırıq. Bütün əşyalarımız yanıb kül oldu. Əsgərlikdə olan övladlarıma paltar, bəzi əşyalar almışdım ki, yanlarına gedəndə aparım. Onlar da yanıb kül oldu”.

**Mənzili yanmış digər sakin Rəna Zamanova:** “Gəlib maraqlansalar da bizim gecəni harada keçirəcəyimizi deyən olmadı. Deyirlər ki, burada bina tikəcəklər. Guya hansısa şirkət bu ərazini alıb ki, bina tiksin. Ancaq bu günə qədər bizim qapımızı döyüb, bu barədə nə isə söyləyən olmayıb”.

Sakinlər bildirdilər ki, üzvləri yanan ailənin uşaqları evin içərisində, ata-ana isə hamamda yanaraq kül olublar. Müşahidə etdik ki, bina demək olar ki, yaşamağa tam yararsızdır. Ancaq bu gün də orada 18 ailə yaşayır. Onlar da təbii ki, bu cür hadisədən sığortalanmayıblar. Tikili yarımçıq olduğu üçün binanın ətrafı karton, sellofan və digər bu kimi yanmaya meyilli əşyalarla tutulub. Binanın elektrik xətləri isə tam yararsız vəziyyətdədir.

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**



# DYP rəisinin oğlunun qəza törətməsi xəbərinə rəsmi reaksiya

## Vaqif Əsədov: “Azadlıq prospektində üç ay əvvəl bir hadisə baş verib...”

**“Bir neçə gün öncə Bakıda ABŞ səfirliyinin avtomobilinin qəzaya uğraması və hadisənin Səbayel Rayon Dövlət Yol Polisi Şöbəsinin (DYPŞ) rəisi, polis polkovnik-leytenantı Cəmşid Həniféyevin oğlu tərəfindən törədilməsi barədə xəbər yalandır”.**

Bunu Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov deyib.

O bildirib ki, Nəsimi rayonu Azadlıq prospektində üç ay əvvəl bir hadisə baş verib: “Amma o hadisənin indi yayılan məlumatla heç bir əlaqəsi yoxdur. İdarə tərəfindən araşdırma aparıldı və yazılanlar təsdiqini tapmadı. Amma çox maraqlıdır ki, bir neçə gün əvvəl mənə jurnalistlər zəng edib bu barədə sual vermişdilər. Mən də bildirdim ki, belə bir hadisə baş verməyib. Lakin üstündən bir həftə keçəndən sonra bunu yayıblar. Görəsən, burada məqsəd nədir? Qəribədir ki, belə bir hadisə baş vermədiyi halda, bəzi jurnalistlər heç bir dəqiqləşdirmə aparmadan xəbər yayıblar”.

**DYP-nin şöbə rəisi Cəmşid Həniféyev özü də bildirib ki, yayılan xəbərin ona və ailəsinə heç bir aidiyyəti yoxdur:** “Birincisi, mənim oğum balacadır. Maşın sürmür. İkincisi isə bizim ”Gelandewagen" markalı maşınımız yoxdur. Düşünürəm ki, yayılan bu informasiya yol polisinin fəaliyyətinə kölgə salmağa hesablanıb. Lakin bunun heç bir əsası yoxdur".





# Təyyarə qəzasında ölən 2 futbolçu Azərbaycan klublarında çıxış edib

**Kolumbiyada qəzaya uğrayan sərnişin təyyarəsindəki “Şapekoense” klubunun futbolçularından 2-si vaxtilə Azərbaycan Premyer Liqasında çıxış edib.**

“Report”un məlumatına görə, bunlar Filip Joze Maçado və Villiam Tieqo de Xesusdur.

Maçado 2010/2011 mövsümündə Bakı “İnter”inin formasını geyinib. Hazırda 32 yaşı olan müdafiəçi Bakı təmsilçisinin heyətində 9 oyuna çıxıb.

30 yaşlı müdafiəçi Villiam Tieqo de Xesus isə “Xəzər Lənkəran”da forma geyinib. 2014-cü ilin yanvarında onunla 1.5 illik müqavilə imzalansa da, həmin ilin dekabrında qarşılıqlı razılaşma əsasında müqaviləyə xitam verilib.

“360 Radio Colombia” qəza nəticəsində göyərtədə olan 81 nəfərdən 6-nın sağ qaldığını bildirib. Onlardan Alan Ruşel müdafiəçi, Danilo Padilya və Jakson Follman isə qapıçılardır. Onlar xəstəxanalardan birinə çatdırılıb. Digər 3 şəxsin adı isə açıqlanmayıb.







YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

**Spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin noyabrın 29-da keçirilən iclasında cari məsələlərin müzakirəsi zamanı deputatlar əsasən Rusiya-Ermənistan hərbi əməkdaşlığından danışdılar və Kremlin bu siyasətinə etiraz etdilər.**



# Parlamentdə anti-Rusiya bəyanatları

## Deputatlar baş prokuror Zakir Qaralovun təhqir və böhtana qarşı cəzaların sərtləşdirilməsi barədə təşəbbüsünü dəstəklədi; müzakirələrdə ölüm cəzasının bərpası da təklif olundu

**Deputat Qüdrət Həsənquliyev** Ermənistan prezidenti Serj Sərkisyanın Respublika Partiyasının 16-cı qurultayındakı çıxışı zamanı Bakını tutmaqla bağlı hədəsinə diqqət çəkdi: "Ermənistan prezidenti Azərbaycanı hədələyib və deyib ki, hətta Bakını işğal edə bilər. Aprel döyüşlərində siçan kimi girməyə deşik axtaran Sərkisyan indi Moskvada özünə deşik tapıb, arxasında "İsgəndər" raketlərini hiss edir və bizi hədələyir".

**Q.Həsənquliyv bildirdi ki, Ermənistanın arxasında Rusiya dayanır:** "Biz Qarabağ problemini ona görə çözə bilmirik ki, onu Moskva müdafiə edir. Bu, Azərbaycanla indiki münasibətlərin səviyyəsinə uyğun gəlmir. Mən həmişə Rusiya ilə münasibətlərin normallaşmasının tərəfdarı olmuşam. Amma nə belə vasitəçi, nə də strateji tərəfdaş olmaz. Rusiyaya Milli Məclis olaraq müraciət etməliyik ki, sən bizdən nə istəyirsən? Əgər Rusiya Ermənistana dəstək verəcəksə, biz Rusiya ilə münasibətlərə yenidən baxmalıyıq. Azərbaycanda 90 min şagird rusca təhsil alır. Ancaq Rusiya işğalçını müdafiə edir. Rusiya ya vasitəçi kimi bitərəf mövqeyini saxlamalıdır, ya da Rusiya ilə münasibətlərə yenidən baxmalıyıq".

**Deputat Fərəc Quliyev** Rusiya-Ermənistan hərbi birləşməsinin Naxçıvanla Qarabağ arasında yerləşdirilməsi barədə razılığı xatırladaraq "Ermənistanın istənilən formada bu ordudan istifadə etmək imkanları var, bunu nəzərə almalıyıq"-deyə, əlavə etdi. O, Qars müqaviləsini xatırladaraq dedi ki, Türkiyə hərbi bazasının Naxçıvanda yerləşdirilməsi ilə bağlı işlər aparılmalıdır.

**Deputat Asim Mollazadə parlamentdə soyqırımla bağlı aparılan müzakirələri və təklif edilən qanun layihəsini dəstəklədiyini bildirdi. Daha sonra o, Rusiya-Ermənistan hərbi əməkdaşlığından bəhs etdi:** "Açıq görünür ki, Ermənistan Rusiyanın hərbi əyalətidir. Biz artıq danışıqları Ermənistanın sahibləri ilə aparmalıyıq. Minsk Qrupu Azərbaycanla Rusiya arasında vasitəçilik etməlidir. Azərbaycanla Rusiya arasında sazişə əsasən Rusiya ərazisində yaşayan 366-cı alayın nümayəndələri, uşaq qatilləri cəzalandırılmaq üçün Azərbaycana təhvil verilməlidir. Rusiya bu sazişlə bağlı addımlar atmasa, biz bu sazişin tam pozulduğunu bəyan etməliyik". A.Mollazadə onu da dedi ki, Azərbaycanda Xocalı ilə bağlı qurulan məhkəmədə xarici ekspertlər iştirak etməlidir.

**Deputat Qənirə Paşayeva Şəhidlər Xiyabanında Xocalı soyqırımı ilə bağlı abidə qoyulmasını və işğal altında olan ərazilərlə bağlı qanunun qəbul edilməsini təklif etdi. Xanım deputat Şəhidlər Xiyabanında da Xocalıya aid monument, abidə və məlumat lövhəsinin qoyulmasını zəruri saydı:** "Ölkəmizə gələn bütün xarici qonaqlar protokola uyğun olaraq mütləq Şəhidlər Xiyabanını ziyarət edir. Eyni zamanda ölkəmizə gələn turistlər arasında da Şəhidlər Xiyabanını ziyarət edənlər az deyil. Beləliklə, Şəhidlər Xiyabanında Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə və ya monument qoyularsa, lövhədə xarici dillərdə məlumat yerləşdirilərsə, ölkəmizə gələn bütün qonaqlar protokol qaydasında Şəhidlər Xiyabanını ziyarət edən zaman Xocalı Soyqırımı qurbanlarının xatirə abidəsini də ziyarət etmiş olacaq və bu barədə daha da geniş məlumatlar almış olacaqlar".

Milli Məclis "Tütün və tütün məmulatı haqqında" Qanuna da müvafiq dəyişikliklər etdi. Komitə sədri Eldar İbrahimov bildirdi ki, dəyişikliyə əsasən tütün məmulatlarının satışında həvəsləndirmə üsulları məhdudlaşdırılır. Belə ki, "Tütün və tütün məmulatı haqqında" Qanuna dəyişikliyə əsasən tütün və tütün məmulatını alanlara hədiyyə qismində digər əmtəənin təklif edilməsi qadağan edilir.

Həmçinin tütün və tütün məmulatının və onun ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanların reklamı qadağan edilir. Digər dəyişikliyə əsasən isə tütün və tütün məmulatı istehsalı və ya satışı ilə məşğul olan şəxslər "Reklam haqqında" Qanunun 13.4 və 28-ci maddələrinə uyğun olaraq sponsor ola bilməzlər.

Bundan əlavə, dəyişikliyə əsasən ictimai yerlərdə və müəssisələrdə siqaret çəkənlər yüksək məbləğdə cərimələnəcəklər. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişiklik nəzərdə tutulub. Qanunu pozan vəzifəli şəxs 400 manatdan 1000 manatadək cərimələnəcək. Təyyarədə siqaret çəkənlər 100 manat, qatarda 40 manat, metroda siqaret çəkənlər 50 manat, ictimai nəqliyyatda siqaret çəkənlər isə 40-50 manat cərimə olunacaqlar.

**Deputat Fazil Mustafa dəyişiklikləri dəstəkləsə də, qənaedici saymadı. Dedi ki, radikal qərarların qəbuluna ehtiyac var:** "Biz xəstəxanaların, xüsusilə də ankoloji şöbələrin qarşısında durmuş minlərlə insanı görürük. İctimai yerlərdə siqaret çəkilməsi birmənalı şəkildə qadağan olunmalıdır. Keyfiyyətsiz tütün məhsullarından xəstələnənlərin sayı sürətlə artmaqdadır. Yüksək cərimə təyin edək. Türkiyədə cərimələrdən sonra siqaret çəkənlərin sayı on dəfəyədək azaldı. Xüsusilə də məktəb yaxınlarında tütün məmulatları satan mağazalar var. Lap ora reklam yapışdır ki, siqaret çəkmək olmaz. Onsuz da bunlar var. Amma mağazalar, qəlyan çəkilən yerlər məktəbliləri, azyaşlıları buna bir növ təhrik edir. Ona görə də xanım həmkarlarıma müraciət edirəm ki, onlar bu məsələnin həllində daha fəal olsunlar".

**Vitse-spiker Bahar Muradova deputatın bu fikirlərinə dəstək verdi:** "Siqaretdən istifadənin qarşısının alınması həm sağlamlığa, həm də şəxsi büdcəyə faydalı olardı. Ona görə də biz xanım millət vəkilləri bu məsələdə təşəbbüskar olmuşuq və bundan sonra da olmağa hazırıq".

**Deputat Gövhər Baxşəliyeva F.Mustafanın təkliflərini müdafiə etdi:** "Cərimələri artırmaqla bu problemin qarşısını almaq mümkünsüzdür. Bununla ictimai yerdə siqaretin çəkilib-çəkilmədiyini sübut etmək mümkün olmayacaq. Burada daha çox maarifləndirməyə üstünlük verilməlidir. Tütün məmulatlarının zərəri barədə maarifləndirmə işi kifayət qədər güclü aparılmır. Necə ki, alkoqollu içkiləri yetkinlik yaşına çatmayanlara satmaq qadağandır. Buraya tütün məhsulları da əlavə olunmalıdır".

Qanun layihəsi səsverməyə çıxarılaraq qəbul olundu.

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanuna dəyişikliklər edilməsi barədə layihə də müzakirələrdən sonra qəbul edildi.

**Deputat Əflatun Amaşov bu sahədə vəziyyətin acınacaqlı olduğunu bildirdi:** "Milli Məclisə gələndə yalnız bir yaşayış binasında 10 reklam və mağazaların adı yazılmış lövhələr gördüm. 8-i Azərbaycan dilində deyildi. Qalanlar da bank və apteklə bağlı idi. Biz bu sayaq nümunələri hər gün görürük. Mən əcnəbi sözlərin dilimizə daxil olmasının qəti əleyhdarı deyiləm. Həm də hesab edirəm ki, bu, dilimizin inkişafına müsbət təsir göstərir, onu zənginləşdirir. Ancaq məsələyə həssas yanaşmaq lazımdır. 10 reklamdan 8-i əcnəbi dildədirsə, artıq burada dilin inkişafı məsələsindən söhbət gedə bilməz. Yağış damcısı torpağa hopduğu kimi əcnəbi sözlər də bizim şüurumuza həkk olunur".

Baş prokuror Zakir Qaralovun parlamentə göndərdiyi qanun layihəsi barədə Dövlət quruculuğu və hüquq komitəsinin sədri Əli Hüseyni məlumat verdi. Baş prokuror tərəfindən Cinayət Məcəlləsinə təklif edilən 148-1 (İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ay təhqir etmə) maddəsinə əsasən, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə 1000 manatdan 1500 manata qədər cərimə və ya 360 saatdan 480 saata qədər ictimai işlər, yaxud 2 ilədək müddətə islah işləri və ya 1 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Həmçinin yeni maddənin "Qeyd" hissəsində isə göstərilir ki, bu maddədə "saxta istifadəçi adlar, profil və ya hesablar" dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür.

Digər layihəyə əsasən KİV-də və internet resurslarında prezidentin şərəf və ləyaqətini təhqiretmə ilə bağlı da cəzalar sərtləşdirilir. Ə.Hüseynli dedi ki, bu qanun bütün vətəndaşlara yönələn təhqir və böhtanın qarşısını almağa xidmət edəcək.

Spiker Oqtay Əsədov dedi ki, o da bu dəyişiklikləri təqdir edir.

Deputat Fazil Mustafa qanun layihəsinin müzakirəyə çıxarılmasını son dərəcə vacib hesab etdiyini bildirdi. Xüsusilə də prezidentin şərəf və ləyaqətinə qarşı yönələn materialların yayıldığını xatırladan deputat bu əməllərə yol verənlərin aşkarlanıb cəzalandırılmasını zəruri saydı.

**F.Mustafa dedi ki, əsas hədəf təhqir və böhtan olmalıdır:** "Fərqi yoxdur, burada saxta istifadəçi oldu, ya özü oldu".

**Deputat Məlahət İbrahimqızı** baş prokurora bu layihəni parlamentə göndərdiyi üçün təşəkkür etdi.

**Deputat Elmira Axundova** ölkə rəhbərinin ünvanına təhqirlər və əxlaqsız sözlər yazanlara qarşı mübarizənin sərtləşdirilməsini təqdir etdiyini dedi. "Biz bununla KİV-lərə qarşı hər hansı məhdudiyyət qoymuruq"-deyə, o əlavə etdi. E.Axundova qanunun prezidentlə yanaşı, onun xanımına, həmçinin prezident ailəsinin üzvlərinə də tətbiq edilməsini təklif etdi. Deputat həmçinin ölkədə qəddarlıqla həyata keçirilən cinayətləri xatırladıb ölüm cəzasının bərpasını təklif etdi. Ancaq vitse-spiker Bahar Muradova "mən düşünürəm ki, buna qayıtmağa ehtiyac yoxdur" söylədi.

Deputat Tahir Kərimli qanunun daha da təkmilləşdirilməsini zəruri saydı.

Deputat Əflatun Amaşov baş prokurorun təşəbbüsünü dəstəklədi.

Deputat Fəzail Ağamalı da dəyişiklikləri müdafiə etdi.

**Deputat Aqil Abbas dedi ki, söhbət təkcə prezident və ailəsindən yox, həm də sadə vətəndaşların təhqirə məruz qalmasından gedir:** "Ona görə də biz bu qanuna səs verəcəyik. Saxta profillərə qarşı mübarizə aparılmalıdır. Filmdə deyildiyi kimi, əgər kişisənsə, öz imzanla yaz!"

**"Bu gün Azərbaycan parlamentində söyülən 3 deputat var. Sosial şəbəkələrdə məndən, Fəzail Ağamalıdan və Fazil Mustafadan çox söyülən yoxdur. Mənim atamın goruna 932 nəfər söymüşdü".**

**Deputat Aqil Abbas bunu plenar iclasdakı çıxışı zamanı dedi. A.Abbas bu vəziyyətə seyrçi qalan həmkarlarını da qınayıb:** "Mən parlament haqqında nə yazılırsa, ona reaksiya verirəm. Amma çox təəssüf ki, bizim həmkarlarımız deputat həmkarlarına yönələn təhqirlərə reaksiya vermirlər. Biri deyir maaşım çoxdur. Çoxdur, alma da. Mənim dostum Tahir Kərimli deyir maaş alanda utanıram. Utanma, başına dönüm, işləyirsən, maaşını alırsan. Belə vəziyyətlərdə hamınız yaxanızı qırağa çəkirsiniz, 5-6 nəfər cavab verməİk məcburiyyətində qalır. Vahid müəllim (Əhmədov-red.) deməyib axı mənim maaşım özümə çatmır. Amma dediyi sözə görə bəzi deputatlar çıxıb deyir ki, mənim maaşım çoxdur. Çoxdursa, onu deyən deputatların maaşını azaldın da".

**Spiker Oqtay Əsədov isə yerdən "halal olsun" deyə reaksiya verən Hadı Rəcəbliyə irad tutdu:** "Hadı Rəcəbliyə mən şəxsən demişəm ki, intervü verəndə görün kimə verirsiniz. Bu, nə xəstəlikdir? Bir çoxlarınız intervü verməyiniz üçün sinov gedirsiniz. İntervü verdiniz, saytlara baxın, görün dediklərinizi yazırlarmı?"

**Deputat Fəzail Ağamalı isə gözlənilməz çıxış etdi:** "Aqil Abbas dəfələrlə burada solaxay çıxış edib. Onun hələ səviyyəsi çatmır ki, buradakı millət vəkillərinə dərs keçsin. Nəhayət, buna son qoyulmalıdır".

Bundan sonra qanunlara əlavə və dəyişikliklər qəbul edildi.

Komitə sədri Fuad Muradov isə "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim etdi.

**Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

# Abşeron rayonunda tədbir keçirildi: Xırdalan 10 il...

## İcra başçısı İradə Gülməmmədova: "Qədim tarixə malik Xırdalan artıq XXI əsrin şəhəri adını daşımağa layiq olduğunu sübut etdi"

**Noyabrın 29-da Abşeron Rayon İcra Hakimiyyəti Xırdalan qəsəbəsinə şəhər statusunun verilməsinin 10 illiyi ilə bağlı tədbir keçirib.**



Tədbir başlamazdan öncə Abşeron Mədəniyyət Mərkəzində rayon ərazisində fəaliyyət göstərən şirkətlərin məhsulları təqdim olunub. Tədbirdə ictimaiyyət nümayəndələri, ziyalılar, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova iştirak edib. Abşeronda istehsal olunan tikinti materialları və qida sənayesi məhsullarını özündə cəmləşdirən 20-dən çox şirkətin məhsullarının sərgisi keçirilib. Eyni zamanda Abşeron rayonunda istehsal olunan dərman preparatları da sərgidə yer alıb. Sərgi ilə yanaşı Abşeron rayonunda görülən işlərlə bağlı geniş məlumatlar verilib, Xırdalan şəhərinin 10 illiyi ilə bağlı videoçarx təqdim olunub.

**"Yeni Müsavat" qəzetinin tədbirdə iştirak edən əməkdaşı Abşeron Rayon İcra Hakimiyyətinin nümayəndələri ilə görüşüb. Əməkdaşımızı qarşılayan Abşeron Rayon İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri Seymur Qasımov tədbirdən öncə təşkil olunan sərgi barədə məlumat verib. S.Qasımov Xırdalan şəhərinin 10 illiyi ilə bağlı 20-dən çox şirkətin sərgidə yer aldığını vurğulayıb:** "Bu gün Xırdalan qəsəbəsinə şəhər statusunun verilməsinin 10 illiyi ilə bağlı tədbirin bir hissəsi də bu sərgidir. Abşeron rayonu ərazisində tikinti materialları və qida sənayesini özündə cəmləşdirən 20-dən çox şirkətin məhsulları təqdim olunur. Eyni zamanda rayon ərazisində istehsal olunan dərman preparatları da var. Bütün bu işlər Abşeron rayonunun inkişaf göstəricisidir".









**Tədbiri giriş sözü ilə açan Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova son 10 il ərzində Xırdalan şəhərində görülmüş işlərlə bağlı geniş məlumat verib:** "10 il bundan öncə prezident İlham Əliyev Xırdalan şəhərində gedən abadlıq və quruculuq işlərini yüksək qiymətləndirərək, Xırdalana şəhər statusunun verilməsi haqqında sərəncam imzaladı. Qədim tarixə malik Xırdalan artıq XXI əsrin şəhəri adını daşımağa layiq olduğunu sübut etdi. Yeni, müasir Azərbaycan şəhəri olan Xırdalanın inkişafında əməyi olan bütün insanları alqışlayır, sakinlərə bu gözəl şəhərimizdə xoş güzəran, mənalı həyat, möhkəm cansağlığı arzulayıram. Tarixi təxminən XIV əsrdən başlanan və İpək yolunun üzərində yerləşən Xırdalanda böyük karvansaraylar tikilmişdi. Burada dünyanın bir çox ölkələrindən gələn tacirlər gecələmişdi. Xırdalanın bünövrəsini qoyan nəsillər, Hacıqoculular, Ağbabalılar, Fərəməzlilər, Səfqanlılar, Qırçılar olmuşlar. Bu nəsillərin Xırdalanın böyüyüb genişlənməsində böyük rolu olmuşdu. XIX əsrdə Şamaxıda baş vermiş zəlzələdən sonra buraya gələn əhali Şirvanşərah məhəlləsini salıb və həmin məhəllə indi də öz əzəli adını saxlayır.

Burada həmçinin XX əsrin əvvəllərində neft mədənlərində işləmək üçün İrandan Bakıya gələn və Xırdalanda ailə qurmuş güney azərbaycanlılar, habelə Xızıdan köçüb gəlmiş xeyli ailə yaşayır. Vaxtilə Xırdalanda neft quyuları olub. Əllə qazılan quyuların dərinliyi 100 metrə çatırmış. 1913-cü ilin statistik hesabatına görə Xırdalan kəndinin yaxınlığındakı 50-yə yaxın quyudan sutkada 65 ton neft çıxıb ki, bu da ən yüksək nəticə sayılır. Xırdalanda böyük üləmalar, din xadimləri, ruhanilər, elm-sənət alimləri yetişib. Axund Hacı Molla Qafur Molla Ələsgər oğlu, Seyid Hüseyn Badukeyi, AMEA-nın ilk prezidenti, akademik Mirəsədulla Mirqasımov, professor Rza Mehdizadə, xalq şairi Nəbi Xəzri, xalq artisti Ağahüseyn Cavadov və onlarla ictimai-siyasi xadim Xırdalan torpağında yetişib".

**Tədbirin sonunda tanınmış müğənnilərin, incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı təqdim olunub.**

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**









YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

**Tarif Şurası noyabrın 28-də qaz və işığın satış qiymətləri diffensiasiya (istehlak səviyyəsinə görə fərqləndirilməsi) edib. Belə ki, Tarif Şurasının iclasında təbii qaz, elektrik enerjisi, soba mazutu, reaktiv mühərrik yanacağının qiymətlərini bahalaşdırıb. Şuranın iclasında həmçinin yeni dərman vasitələrinin satış qiymətləri təsdiq edilib.**

# Gözlənilənlər oldu-qaz və işıqdan sonra daha nələr bahalaşır?

## Bütün ərzaq, kənd təsərrüfatı və nəqliyyat xidmətlərində qiymətlərin bahalaşması qaçılmazdır; qaz və işığa "israfçılıq izahı"na ekspertlər nə deyir?

### Qiymətlər nə qədər bahalaşıb?

Ekspert Qubad İbadoğlu bahalaşma qərarının detallarına diqqət çəkərək bunun vətəndaşa təsirini arqumentləşdirib: "Əhali üzrə qazın qiyməti illik istehlak həcmi 1500 kubmetrədək çox olan istehlakçılar əvvəlki kimi hər 1 kuba görə 10 qəpik deyil, 2 dəfə çox- 20 qəpik ödəyəcəklər. Bu isə o deməkdir ki, əgər hər hansı bir isehlakçı istifadə etdiyi qaza görə hər ay orta hesabla 20 manat, ildə 240 manat xərcləyirdisə, yanvarın 1-dən sonra ayda 7 manat 50 qəpik, ildə isə 90 manat çox, bütövlükdə isə 1 il üçün 330 manat ödəyəcək. Əgər başqa bir istehlakçı istifadə etdiyi qaza görə hər ay 30 manat, ildə 360 manat xərcləyirdisə, yanvarın 1-dən sonra ayda 17 manat 50 qəpik, ildə isə 210 manat çox, bütövlükdə isə 1 il üçün 570 manat ödəyəcək. Ayda 40 manat, ildə 480 manat ödəyənlər isə gələn ildən ayda 27 manat 50 qəpik, ildə isə 330 manat çox, bütövlükdə isə 1 il üçün 810 manat ödəyəcək".

Əhali üzrə işığın qiymətinə gəlincə, aylıq elektrik enerjisi istehlakı 250 kilovat-saatdan çox olan istehlakçılar əlavə hər 1 kilovat-saata görə əvvəlki kimi 7 qəpik deyil, 1,6 dəfə çox- 11 qəpik ödəyəcəklər. Bu isə o deməkdir ki, əgər hər hansı bir isehlakçı istifadə etdiyi işığa görə hər ay orta hesabla ayda 21 manat, ildə 252 manat xərcləyirdisə, dekabrın 1-dən sonra ayda 26 manat 50 qəpik, ildə 318 manat ödəyəcək. Başqa bir istehlakçı ayda 28 manat, ildə 336 manat xərcləyirdisə, dekabrın 1-dən sonra ayda 44 manat 50 qəpik, ildə isə 534 manat ödəyəcək. Digər istehlakçı hər ay 35 manat, ildə 420 manat xərcləyirdisə, dekabrın 1-dən sonra ildə ayda 62 manat 50 qəpik, ildə isə 750 manat ödəyəcək.

Q.İbadoğlu deyib ki, illik 1500 kub metrdən çox qaz, 3000 kilovat-saatdan çox işıq istehlak edənlər üçün qiymətlər əhəmiyyətli dərəcədə bahalaşır.

### Qiymətlərin bahalaşması əsaslıdırmı?

Qeyd edək ki, əksər ekspertlər bahalaşma qərarının əsaslı olmadığını vurğulayırlar. Çünki Azərbaycanda uzun illərdir ki, bp tərəfindən səmt qazı havayı verilir. Bu da təqribən ildə 3,5 milyard kubmetr əlavə qaz deməkdir. Azərbaycanda əhalinin istehlakını da nəzərə alsaq, ölkənin istehlak etdiyi qazın yarıdan çoxunu bp havayı verir. Amma ölkədə onsuz da qazı kifayət qədər yüksək qiymətə satırlar. Elektrik də xaricdən idxal olunmur, daxildə istehsal olunur, onun da xammalı sudur. Elektrikin qiymətinin qalxmasına ehtiyac yoxdur. Yanacaq da Azərbaycanda istehsal olunur. Q.İbadoğlu isə bildirir ki, Tarif Şurasının açıqlamasına görə, qiymətlər Dövlət Neft Şirkətinin və "Azərenerji" ASC və "Azərişıq" ASC-nin müraciətləri əsasında bahalaşdırılıb. Dövlət Neft Şirkəti bunu zəruri edən səbəb kimi son illərdə şirkət tərəfindən investisiyanın qoyulmasını, xidmətin keyfiyyətinin artırılmasını, satdığı qazın bir hissəsinin əməliyyat şirkətlərindən ABŞ dolları ilə alınmasını əsas göstərib. "Azərenerji" ASC və "Azərişıq" ASC-nin müraciətlərində də sərmayə qoyuluşunun artırılması əsas gətirilib. "Bu şirkətlərin arqumentləri əsassızdır, çünki qaz təchizatı sahəsində xidmətin keyfiyyəti barədə danışmağa dəyməz, əməliyyat şirkətlərindən alınan qazın qiyməti də neftin qiymətinə konvertasiya olunduğundan, istənilən halda ucuzlaşmalı idi. Sərmayə qoyuluşuna gəlincə, qaz indiyədək pulsuz verilməyib ki, onun satışından yığılan pullar investisiya qoyuluşlarının maliyyələşdirilməsinə gedib. Eyni məntiqinə elektrik enerjisi istehsalı və təchizatına da sərmayə qoyuluşu satışdan gələn gəlirlər hesabına maliyyələşdirilib" deyə, ekspert vurğulayıb.





### Rəsmi qurumlar da izah verə bilmir

**Qeyd edək ki, ekspertlər qərarda qoyulan limitlə bağlı da narazılıq bildirirlər. Bildirilir ki, böyük əksəriyyət bu limiti ötüb keçəcək. Elə isə limit, xüsusi hədd kim tərəfindən təklif edilib və bu, hansı əsaslarla hesablanıb?**

**"Azəriqaz"ın ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İbrahim Kərbəlayev "Yeni Müsavat"a bildirib ki, ancaq limitdən keçən hədd yeni, baha tariflə hesablanacaq:** "İl ərzində 1500-dən artıq qaz işlədildisə, artıq məbləğ yeni tariflə hesablanacaq. Əhalidə də, qeyri-əhali qrupunda da yeni tarif limitin keçdiyi həddə hesablanır". Bəs limiti kim təklif və təyin edib? "Azəriqaz" rəsmisi bununla bağlı SOCAR-ın mətbuat xidmətinə müraciət etməyi məsləhət gördü.

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev isə bildirib ki, hələlik detallar, sayğacların necə hesablanacağı, həmçinin limitin, həddin kim tərəfindən təklif edildiyi məlum deyil:** "Detalları bilmirik. Sayğacların necə oxunacağı bəlli deyil".

**"Azəristiliktəchizat" ASC-nin abonent və müştəri xidmətlərinin rəhbəri Rafiq Əliyev isə bildirib ki, artıq qiymətləri Tarif Şurası tənzimləməyəcək:** "İsti suyun tarifi qurumdan çıxarılır, istilik hələ qalır. Yanvar 1-də qiymətlərə baxılacaq. Amma qiymətlərin tənzimləmədən çıxarılması o demək deyil ki, bahalaşma olacaq. Artıq işığın, qazın qiyməti qalxıb, məsələ qurumda müzakirə ediləcək".

**SOCAR-ın mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyev smart tipli sayğaclarda qazla bağlı hesablamanın necə aparılacağına aydınlıq gətirib. O, modern.az-a açıqlamasında bildirib ki, narahatlıq üçün heç bir əsas yoxdur, sistem yeni tariflərə uyğunlaşdırılacaq:** "Abonent smart tipli sayğaca pulunu köçürəcək. 1500 kuba qədər köhnə qiymətlə qəbul ediləcək. Yəni il ərzində qaz kartına yüklənən 1500 kub metrədək (150 manatadək) qaza görə hər kub metr 10 qəpikdən hesablanacaq.1500 kubdan sonra isə yeni qiymətlə- 20 qəpikdən hesablanacaq. Sayğaclar özü bunu tənzimləyəcək".

### Bahalaşma sahibkarlığa da zərbə olacaq

Ekspertlər isə bahalaşmanın kənd təsərrüfatına, istixanalara, parniklərə də ciddi təsir göstərəcəyini vurğulayırlar. Bildirilir ki, bahalaşma bu sahədə durumu daha da çətinləşdirəcək. Sahibkar Şahin Nəcəfov deyib ki, bu sahədə çalışanların işi çətinləşəcək: "Qaz sərfiyyatı istixanalarda yüksəkdir. İndi xərc iki dəfə artacaq. Həmçinin bütün istehsal sahələrində qiymət bahalaşması olacaq, bu, qaçılmazdır. Heç olmasa, hökumət Türkiyədə, başqa ölkələrdə olan təcrübədən istifadə etsin, gecə 12-dən sonra qiymətləri endirsin. Gecə 12-dən səhər 6-ya qədər köhnə qiymətlər tətbiq edilsə, bu da fermerə bir köməklik olardı. Alternativ yanacaq axtarışı da nəticə vermir. Bu qiymətlə işləmək, qazanc əldə etmək mümkün deyil. Qaz baha, işıq baha, bununla kənd təsərrüfatında nəticə əldə etmək çətin olacaq. Bu, istehsala yönəlmiş bir zərbədir. İstehsalın məhvinə yönəlmiş addımdır. Parniklərin mahiyyətini hökumət düzgün dəyərləndirmir. Buna barmaqarası baxmaq olmaz, əksinə, güzəştlər tətbiq olunmalıdır". Ekspertlər istixanalarda yetişdirilən məhsulların da qiymətinin 30-35 faiz artacağını vurğulayırlar.

### Bu bahalaşma sondurmu?

Ekspertlər həmçinin bildirirlər ki, bu bahalaşma son deyil. Hökumət ya ilin sonunda, ya da gələn ilin əvvəlində yenidən ciddi qiymət artımına gedəcək. İlk növbədə ərzaq məhsullarında ciddi bahalaşma gözlənilir. Həmçinin nəqliyyatda gediş haqqının bahalaşması ehtimalları böyükdür. Metroda gediş haqqının bahalaşacağı da narahatedici xəbərlər sırasındadır. "Azərbaycan Dəmir-yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri Cavid Qurbanov isə bildirib ki, dəmir yollarında da qiymətlər qalxacaq. Qurum rəhbəri qeyd edib ki, QSC hər ay işığa görə 1 milyon 300 min manat pul ödəyir. O vurğulayıb ki, elektrik enerjisinin qiyməti qalxıbsa, dəmir yollarında da qiymət artımı olacaq. Həmçinin Tarif Şurasının reaktiv mühərrik yanacağının qiymətində dəyişiklik etməsindən sonra AZAL-ın qiymətləri qaldırması da gözlənilir. Bu isə qonşu ölkələrlə rəqabəti daha da aşağı salacaq.



### "Psixoloji təsirlər qısa, iqtisadi təsirlər isə uzunmüddətli olacaq"

**Q.İbadoğlu qeyd edib ki, bu qərarın həm psixoloji, həm də iqtisadi təsirləri olacaq:** "Psixoloji təsirlər qısa, iqtisadi təsirlər isə uzunmüddətli və davamlıdır. Belə ki, maya dəyərində elektrik və qaz istehlakı xərcləri olan bütün məhsul və xidmətlərdə bahalaşma müşahidə olunacaq. Daha çox təsirə məruz qalan çörək bişirmə sənayesi, elektrik enerjisi və qazla işləyən nəqliyyat vasitələri olacaq. Beləliklə də qiymətlərin artımının yeni dalğası başlayacaq. Çox güman ki, tezliklə su, benzin və digər qiymətləri tənzimlənən yanacaq məhsullarının bahalaşmasına dair növbəti qərarlar veriləcək.

**Ekspert Əkrəm Həsənov isə deyib ki, Tarif Şurasının yerli məhsul olan qaz və elektrik enerjisi barədə qərarını dövlət başçısının süni qiymət artımı haqqında kəskin mövqeyinə müxalifətçilik hesab edir:** "Belə ki, bu il ölkə başçısı deyib ki, son vaxtlar müşahidə olunan qiymət artımı yerli məhsullara şamil edilməməlidir. Manatın məzənnəsinin dəyişməsi ilə bağlı bəzi işbazlar süni şəkildə qiymətləri qaldırmaq istəyirlər".

### Bahalaşmaya "israfçılıq izahı"

**İqtisadçı Rövşən Ağayev isə kommunal tariflərin artımının əsaslandırmaq üçün əhalinin israfçılıqdan çəkinəcəyi ilə bağlı iddialara münasibət bildirib.** "Bizim rəsmi statistika "orta statistik ailə" dedikdə orta hesabla hər 100 ailəyə 450 nəfər nəzərdə tutur. Bu rəqəmdən çıxış etsək, bir nəfər üçün orta aylıq istehlak 27 kub edir. Nazirlər Kabinetinin təsdiq elədiyi minimum kommunal xidmət normativinə görə isə bir nəfərin minimal aylıq istehlakı 21 kub təşkil etməlidir. Rəsmi statistikaya görə, hazırda Azərbaycanda 2.3 mln. ev təsərrüfatı təxminən 8 mlrd. kV-saat elektrik enerjisi istehlak edir. Bu, bir ev təsərrüfatına ayda təxminən 290 kV-saat elektrik istehlakı deməkdir. Yenə də rəsmi statistikanın "orta hesabla hər 100 ailəyə 450 nəfər" rəqəmindən çıxış etsək, bir nəfər üçün orta aylıq istehlak 64 kV-saat təşkil edir.

Nazirlər Kabinetinin təsdiq elədiyi minimum kommunal xidmət normativinə görə isə bir nəfərin minimal aylıq istehlakı 50 kV-saat elektrik enerjisi təşkil etməlidir.

Yəni həm təbii qaz, həm də elektrik enerjisinin faktiki istehlak səviyyəsi hökumətin rəsmi təsdiq elədiyi minimum səviyyəyə yaxındırsa, burda israfçılıqdan danışmağın yeri qalmır.

Müqayisə üçün deyim ki, Azərbaycanda adambaşına elektrik enerjisi istehlak səviyyəsi inkişaf etmiş ölkələrlə müqayisədə təxminən 2 dəfə azdır. İnkişaf etməkdə olan ölkələrlə isə eyni səviyyədədir.

Ümumiyyətlə, hazırda orta hesabla dünyada 1 ev təsərrüfatına elektrik enerjisi istehlakı 3.5 min kV-saat ətrafındadı. Azərbaycanda da bu qədərdir. Böyük Britaniya, Fransa və ABŞ-da 6.5-7 min kV-saat ətrafındadı.

Bu baxımdan, bizim ev təsərrüfatlarının istehlak səviyyəsi "israfçı" standartına uyğun deyil".

❑ **Röya RƏFİYEVA**

**Tarif Şurasının son bahalaşma qərarı ölkənin gündəm mövzusuna çevrilib. Zaman-zaman bahalaşma ilə bağlı verilən qərarların arxasında sözügedən qurumun dayandığını xatırladıb, əhalini ən çox maraqlandıran suallara cavab tapmaq istədik. Məsələn, bu qurum nə zaman yaradılıb, əsas funksiyaları, tərkibi və digər məsələlər oxucuların davamlı olaraq soruşduqları sırasındadır.**

# Nəhs "13-lər"-milyonçu nazir müavininin üzv olduğu Tarif Şurası...

## Tarif Şurası, onun üzvləri və iş mexanizmləri barədə bilmədiklərimiz

"Yeni Müsavat" da Tarif Şurasının rəsmi internet saytından əldə etdiyi məlumatlar əsasında oxuculara bu qurum barədə bir arayış təqdim edir.

Tarif Şurası 2005-ci ildə dövlət tənzimlənməsi tətbiq edilən qiymətlərin (tariflərin), xidmət haqlarının, yığımların dövlət tənzimlənməsini həyata keçirən kollegial icra hakimiyyəti orqanı kimi yaradılıb. İqtisadiyyat naziri şuranın sədri olmaqla maliyyə, vergilər, ədliyyə, energetika, nəqliyyat, rabitə və yüksək texnologiyalar, kənd təsərrüfatı, səhiyyə, təhsil, əmək və əhalinin sosial müdafiəsi nazirlərinin müavinlərindən və eləcə də Dövlət Gömrük və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrlərinin müavinlərindən ibarətdir.

### Bu qiymətlər tənzimlənə bilər

Bəs sözügedən qurum hansı qiymətləri tənzimləyə bilər?

Hazırda Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən tənzimlənən tariflər təbii inhisar, dövlət inhisarı və inhisarçı subyektlərin məhsullarına (mallarına, işlərinə, xidmətlərinə), habelə Azərbaycan Respublikasının qanunvericilik aktları ilə tarifləri dövlət tənzimlənməsinə aid edilmiş digər məhsullara (mallara, işlərə, xidmətlərə) tətbiq edilir.

### Qərarlar necə qəbul olunur?

**Nazirlər Kabinetinin dövlət tənzimlənməsi tətbiq olunan tariflərin formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi qaydalarına uyğun olaraq subyektlər tərəfindən dövri olaraq hər il martın 1-dək hesabat materialları Tarif Şurasına təqdim edilir. Həmin materiallar təhlil edilir və aşağıdakı hallarda qiymətlərin yenidən tənzimlənməsi həyata keçirilir:**

*- Obyektiv səbəblərdən malların (xidmətlərin) istehsal xərclərinin artması və ya azalması zamanı;*

*- Qiymətlərin dəyişdirilməsi üzrə subyektlərin təklifləri müəyyən olunmuş tələblər əsasında hazırlanaraq təqdim edildiyi və əsaslandırıldığı halda;*

*- Dünya bazarında qiymətlərin kəskin dəyişməsi və ölkədə yaranmış sosial-iqtisadi vəziyyətdən asılı olaraq.*

*- Zəruri hallarda Şuranın təşəbbüsü ilə də qiymətlərin tənzimlənməsi aparıla bilər.*

Qiymətlərin tənzimlənməsinə dair subyektlərin təşəbbüslərinə əsasən təqdim olunmuş layihələrdəki qiymətlərin sayından asılı olaraq 1 (bir) aya qədər müddət ərzində baxılaraq münasibət bildirilir. Bu müddət qiymət layihələrinin əsaslandırılması üzrə son məlumatın daxil olduğu gündən hesablanır. Layihənin baxılması üçün müəyyən olunmuş sənədlər və məlumatlar tam təqdim edilmədikdə, şuranın katibliyi müraciət daxil olduğu tarixdən 5 (beş) iş günündən gec olmayaraq çatışmazlıqlar barədə subyektlərə yazılı məlumat verir, çatışmayan sənədlər və məlumatlar subyektlər tərəfindən 5 (beş) iş günü müddətində rəsmi qaydada təqdim edilir.


İltimas Məmmədov



Qiymət layihələrinin iqtisadi cəhətdən düzgün əsaslandırılmasının təmin edilməsi məqsədilə maya dəyərinə aid edilən xərc maddələri, vergilər, mənfəət və digər elementlər dəqiq araşdırılır. Bu zaman maya dəyərinə, qiymətlərə dair maraqlı tərəflərin (istehlakçıların) irad və təkliflərinə baxılır və onlar əsaslı olduqda nəzərə alınır.

Hazırlanmış layihələr katibliyin təklifləri əsasında şuranın üzvləri ilə müzakirə edilir və gündəliyinə daxil edilir. Şuranın iclaslarında baxılan sənədlər şuranın əsasnaməsinə uyğun olaraq rəsmiləşdirilir. Subyektlərin məhsullarının (xidmətlərinin) qiymətlərinin tənzimlənməsinə zərurət yarandıqda, şura bu işin icrasını qısa müddətdə təmin edir. Subyektlər üzrə təsdiq edilmiş qiymətlər cədvəl şəklində sənədləşdirilir. Bu sənədin ümumi göstərişlər bölməsində məhsulun (xidmətin göstərilməsi) satış şərtləri və xüsusiyyətləri əks etdirilir.

Müəyyən edilmiş siyahı üzrə dövlət orqanları təsdiq olunmuş qiymət cədvəlləri ilə təmin edilir və qiymətlər kütləvi informasiya vasitələri ilə elan olunur.

### Şura üzvləri- adbaad...

**İndi isə şura üzvlərini şəxsən tanıyaq.**

**Sədr:** *iqtisadiyyat naziri Şahin Mustafayev*

*Maliyyə nazirinin müavini - Azər Bayramov*

*vergilər nazirinin müavini - Sahir Məmmədxanov*

*ədliyyə nazirinin müavini - Toğrul Musayev*

*energetika nazirinin müavini - Gülməmməd Cavadov*

*nəqliyyat nazirinin müavini - Musa Pənahov*

*rabitə və yüksək texnologiyalar nazirinin 1-ci müavini - İltimas Məmmədov*

*kənd təsərrüfatı nazirinin müavini - İlham Quliyev*

*səhiyyə nazirinin müavini - Elsevər Ağayev*

*təhsil nazirinin müavini - Ceyhun Bayramov*

*əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini - İdris İsayev*

*Dövlət Gömrük Komitəsi sədrinin 1-ci müavini - Səfər Mehdiyev*

*Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini -Dövlətxan Dövlətxanov.*

Şura üzvlərindən biri - İltimas Məmmədovun adı isə bugünlərdə mediaya və geniş ictimaiyyətə yaxşı məlumdur. O, 2005-ci ildən nazir müavini, 2014-cü ildən isə nazirin birinci müavini vəzifəsində çalışır. İstintaqa ifadəsində İ.Məmmədov deyib ki, nazirliyin əməkdaşlarına hər ay qeyri-qanuni ödənişlər paylanıb. Onun sözlərinə görə, özü hər ay Vidadi Zeynalovdan 15 min manat alıb, sonradan bu məbləğ 30 min manata qədər yüksəlib.

Xatırladaq ki, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin (BTRİB) sabiq baş direktoru, hazırda həbsdə olan Hüseynov Beytulla İbrahim oğlu istintaqa verdiyi ifadəsində nazir müavini İltimas Məmmədova ev tikintisi üçün 1,5 milyon manat pul verdiyini bildirib.

**Bu isə sadəcə bir xatırlatma idi...**

❑ **Hazırladı: Sevinc TELMANQIZI**

# Şeyx məscidlərə axund təyin edə bilmir

## 1500 məscidə axund və ya imam təyin olunmayıb; dini sahədə ən ciddi problemlərdən biri kadrların yetişdirilməsi və onlara müvafiq statusun verilməsidir

**Azərbaycanda 1500 məscidə axund və ya imam təyin olunmayıb. Bu barədə "Report"a Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Bakı İslam Universitetinin rektoru Sabir Həsənli məlumat verib. O bildirib ki, ölkədə hazırda 2100 məscid var və onlardan yalnız 600-ə yaxınına QMİ axund və imam təyin edib.**

1500 məscid isə imam və axundsuz fəaliyyət göstərir. Hacı Sabir Həsənli məscidlərin boş qalmasının başqa bir təhlükəli tərəfinə toxunub. Onun sözlərinə görə, boş qalan məscidlər radikal qüvvələrin təsiri altına düşür. Sitat: "Bu da digər təriqətlərin nümayəndələrinin boş qalan məscidlərdən istifadə etmələrinə və dağıdıcı təbliğatla məşğul olmalarına gətirib çıxarır. Onlar insanların beynini cihad fikirləri ilə doldururlar".

S.Həsənli bildirib ki, BİU-nun tələbələrinin 46-47 faizi qızlar olduğundan onları imam və axund kimi göndərə bilmirlər. Bu da digər təriqətlərin nümayəndələrinin boş qalan məscidlərdə dağıdıcı təbliğatla məşğul olmalarına gətirib çıxarır.

Qeyd edək ki, bu məsələ əslində yeni deyil və bir daha Azərbaycanda dini təhsil və din xidməti mövzularını gündəmə gətirir. Azərbaycanda həqiqətən də savadlı, hansısa xarici dini qrupların təsiri altında olmayan ilahiyyatçı kadrların sayı azdır. Ümumilikdə, ölkədə dini mühitdə xarici təsirin çox güclü olması heç kimə sirr deyil. Uzun illər bu sahə boş qalıb və dövlətin hansısa bir konsepsiyası olmadığı üçün din sahəsində yetişən kadrların böyük çoxluğu xarici təsir altında olub və ya xaricdə yetişib. Hökumət bu sahəyə çox gec, 2000-ci illərin əvvəllərində diqqət ayırmağa başlayanda isə artıq gec idi. Üstəlik və ən pisi o idi ki, hökumətin bu yöndə fəaliyyətləri problemin yenidən aradan qaldırılması, vəziyyəti düzəltmək üçün kifayət edəcək səviyyədə deyildi.



Konkret olaraq məscidlərdə əhaliyə din xidməti verəcək kadrların olmamasının və ya bu sahənin yarıtmaz olmasının bir sıra səbəbləri var. Qeyd etdiyimiz kimi, bu sahədə uzun illər boşluq səbəbindən yerli kadrlar yetişdirilməyib, din təhsili dəstəklənməyib, bu səbəbdən də çoxları normal dini təhsili xarici dini təhsil mərkəzlərində almaq yolunu tutub. Bu məsələdə xarici ölkələrin missioner fəaliyyətləri də rol oynayıb, nəticədə bütöv bir 10 illik dövrdə dini kadrlar xaricdə təhsil alıb. Ancaq 2000-ci illərin əvvəllərində hökumət xaricdə dini təhsil alan ilahiyyatçılara qarşı savaş açıb və nəticədə "Dini etiqad azadlığı haqqında" Qanun dəyişdirilib və xaricdə dini təhsil alanların Azərbaycanda dini vəzifə tutması yasaqlanıb.

Yerli kadrların sayı isə dini vəzifə tutmaq üçün yetərli olmayıb. Çünki Azərbaycanda 1989-cu ildən yaradılmış Bakı İslam Universiteti (ilk 3 il mədrəsə - K.R) və onun Zaqatala, Lənkəran və daha bir neçə filialı (daha bir neçəsi qapadılıb - K.R.) və o cümlədən Bakı Dövlət Universitetinin ildən-ilə kiçilən ilahiyyat fakültəsi yetərli sayda kadr hazırlaya bilmir. Dövlətin isə nə özünün bu cür dini məktəblər yaratmağa həvəsi var, nə də başqalarının yaratmasını təmin edəcək qanuni baza.

Din xadimi çatışmazlığının daha bir obyektiv səbəbi isə din xadimlərinin maddi təminatı mövzusudur. Azərbaycan qanunları din xadimlərinin təminatına icazə vermir. Yəni məscid mollalarına dövlət tərəfindən maaş verilmir. Belə olan halda din xadiminin və ya belə desək, mollanın yeganə yolu yas mərasimlərindən aldığı pulla dolanmaqdır. Bu isə heç də hamı üçün münasib deyil. Üstəlik, normal ictimai və dövlət statusu verilmədiyi üçün din xadimliyi iş yeri hesab olunmur. Yəni BDU-nun ilahiyyat fakültəsini və ya BİU-nu bitirən ilahiyyatçı gedib hansısa ucqar kənddə işləməyə həvəsli deyil. Üstəlik, yerli ənənələr, bu istiqamətdə qanunvericiliyin və ya fəaliyyət əsasnaməsinin olmaması məscidlərdə ruhani işini sistemli hala gətirməyib. Bu səbəbdən də məscidlərdə işləmək istəyən gənc ilahiyyatçıların sayı azdır və paralel olaraq məscidlər boş qalır.

QMİ-nin bu vəziyyəti aradan qaldırması üçün müvafiq qanunvericilik, hüquqi baza yaradılması, bu istiqamətdə ciddi fəaliyyət konsepsiyası hazırlanmalıdır. Hələlik isə bu istiqamətdə hansısa əməli fəaliyyət yoxdur.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

# Mayak



Zamin HACI
zaminhaci@gmail.com

**Bu günlərdə məni polis idarəsinə söhbət eləməyə çağırdılar. Orda rəis dedi ki, sən bəzən ölkəmizdəki uğurları görmürsən, həmçinin hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizəsinə kölgə salmaq cəhdləri vardır. Ümumən çox maraqlı, bir vətəndaş olaraq mənə fayda gətirən dialoq olduğunu qeyd etməliyəm. Nəyə görə?**

Açıq yazsam, bir çox ölkələrdə polis idarəsinin zəhmətkeşi, özəlliklə jurnalisti dəvət eləyib həyat həqiqətlərini başa salması kimi bir prosedur yoxdur. Görüşdə rəis Almaniyadan misal çəkdi, dedi ki, Almaniyanın polisləri Azərbaycan polislərinə həsəd aparırlar, deyirlər, kaş cinayətlərin açılma faizi bizdə də sizdəki qədər olaydı. Bu zaman rəis çoxlu rəqəm yazılmış bir topa vərəqi mənə uzaqdan göstərdi, xeyli məmnun oldum.

Həqiqətən Almaniyanın vəziyyəti hərtərəfli xarabdır. Hitler orda qaz kameralarında yəhudiləri qırırdı, görmüşük bunların hamısını. Bizdə isə hökumət Qubada yəhudi kəndlərinə pulsuz qaz verir, hələ yəhudi deputatımız vardır. Almanlar 41-45-də gəlmişdilər, görmüşük də...

Ancaq bu, məni o qədər də narahat etmir. Mən Azərbaycanda yaşayıram, mənə öz ölkəm maraqlıdır. Bu mənada, kölgə məsələsini xüsusi yazmaq vətəndaşlıq borcumdur.

Həqiqətən də, idarəyə çağırılıb qapıdan içəri girərkən mən baxdım ki, həm özümün, həm vəkilimin uzun kölgələrimiz yaranıbdır. Saat axşam tərəfi 6-nın yarısı olardı. Kölgələrimiz o qədər uzun idi ki, hətta giriş darvazasından idarənin üstünə qədər çatırdı, çox pis görünürdü. Nəsə, içəridə rəis "sən polisin fəaliyyətinə kölgə salırsan" deyəndən, söhbətimiz bitəndən sonra bayıra çıxanda artıq saat axşam 7-yə qalırdı, kölgələrimiz isə yox olmuşdu! Elə o anda mən Hans Kristian Andersenin "Kölgəsiz adam" nağılını xatırladım. Həmin nağılda bir alimdən söhbət gedir, bu alim həqiqət, xeyirxahlıq-zad kimi mənasız şeylərdən kitab yazır, xalq isə bunun kitablarını oxumur, elə düz də eləyir. Nəhayət, alim xəstələnir, bu zaman kölgəsi onun köməyinə gəlir, deyir indən belə yerimizi dəyişək, mən adam olacağam, sən kölgə olarsan. Bundan sonra alimin başına nə gəlir, daha onu yazmıram, qəmli əhvalatlar ölkəmizin analoqsuz inkişafına yaraşmır. Yekun olaraq yayda da kölgəsiz yaşayacağıma and içirəm.

Kölgəmin yox olması bir müsbət hadisədirsə, elə ölkəmizin inkişafını görməyim də başqa işıqlı cəhətdir. Bizdə bəzən deyirlər ki, ölkəmiz günbəgün inkişaf edir. Mən bununla qəti razı deyiləm. Bizdə inkişaf anbaan gedir! Dəqiqəbədəqiqə. Dedabədə. Nəsə. İzah edim.

Demək, polis idarəsinə çağırılıb sonra ordan buraxılanda mən küçəyə çıxıb ətrafa baxdım. Aman tanrım! Ölkəmiz, paytaxtımız o bir saatın içərisində nə qədər dəyişmişdi! İşıqlı binalar, geniş prospektlər, küçələrə gəzməyə çıxmış xoşbəxt insanlar, isti ölkələrə köçməyib Bakıda yaşamağı seçən köçəri quşlar, küknarlar, buludlar, pişiklər, yiyəsiz itlər... Əslində üzr istəyirəm, bizim ölkədə heç bir varlıq yiyəsiz ola bilməz, yetimçilik, lazımsızlıq hiss edə bilməz.

Əgər məni tutub zindana salsaydılar, heç bu uğurları bu qədər geniş şəkildə görə bilərdimmi? Yox. Zindanın pəncərəsi, deyilənə görə, çox balacadır, ordan inkişafın ancaq kiçik kvadratı görünür. Kış-kış... **(Yazının bu yerində sağ çiyin üstündən geri tüpürmək lazımdır. Qəzeti avtobusda oxuyanlar proseduru sonraya saxlasa, heç nə olmaz - Z.H.)**

Yarıqaranlıqda - bizdə heç bir yer tam qaranlıq olmur, o yarıqaranlığı da romantika üçün saxlayırlar - şəhər polis idarəsinin əzəmətli, geniş dəhlizli, bürcləri asimana çatan, bir kərpici gümüş, bir kərpici qızıl binasına diqqətlə baxdım. Ya rəbb! Bu bina necə işıqlı görünürdü. Təbii ki, bu işıqda onun içərisində çalışan ziyalı insanların da böyük rolu vardır.

Gərək həyatdan, içərisində yaşadığın uca millətindən uzaq düşməyəsən, ona yadlaşmayasan, manqurtlaşıb polis haqda ağzına gələni yazmayasan. Onlar bizim qaranlıq dünyadakı, fırtınalı planetdəki yol göstərənimiz, yol ötürücümüz, körpümüz, keçidimiz, mayakımızdır!

Yazını elə bu xoş sözlərlə bitirirəm.

# Lukaşenkonun səfəri: Belarus Qarabağa dəstək əvəzinə nə istəyir?

## Lukaşenkonun Azərbaycan səfərinin arxasındakı niyyətlər

**Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycana səfəri zamanı azərbaycanlı həmkarı İlham Əliyevlə müxtəlif sənədlərə imza atdı. Siyasi müstəvidə iki ölkə arasındakı münasibətlərdə müsbət tendensiya davam edir. Lukaşenko Qarabağ məsələsində Azərbaycanı dəstəkləməkdə davam edəcəyini bəyan etdi.**



Bəs Belarus Qarabağa dəstək əvəzinə nə istəyir? Belarus məhsulları Azərbaycan bazarına girir. Yerli istehsala zərbə vura bilərmi? Belarusun Azərbaycanla əməkdaşlığı bizə, yoxsa onlara daha çox lazımdır? Lukaşenko deyib ki, Azərbaycan hər şeydə Belarusa güvənə bilər. Güvənə bilərikmi?

**Politoloq Elçin Mirzəbəyli** bildirdi ki, Lukaşenkonun səfəri maraqlı dövrə təsadüf edir. Belarus prezidenti qütblər arasında manevr etməyi və ekstremal sosial-iqtisadi proseslərdən praqmatik şəkildə öz ölkəsinin xeyrinə yararlanmağı bacarır: "Belarus iqtisadiyyatı keçid dövrünü yaşayır. Burada kollektiv təsərrüfatdan bazar iqtisadiyyatına keçid prosesi xeyli ləngiyib. Şübhəsiz ki, bunun xeyirli tərəfləri də olub. Məsələn, aqrar sektor və digər sahələrdəki təsərrüfatlar başqa postsovet respublikalarında olduğu kimi dağıdılmayıb, işlək vəziyyətdədi. Azərbaycanla əməkdaşlıq isə Belarusa daha çox lazımdır. Bunu gözlə də görmək mümkündür. Belarusun öz məhsullarını satmaq üçün bazara və enerji məhsullarına ehtiyacı var. İnsafən, bu ölkənin kənd təsərrüfatı məhsulları kifayət qədər keyfiyyətlidir və daha ucuzdur. Bu sahədə Azərbaycanın iş adamları onlarla rəqabət apara bilməz. Amma birgə müəssisələrin yaradılması, zənnimcə, ölkəmizdə kənd təsərrüfatının inkişafına müəyyən töhfə verə bilər.

Mən müxtəlif dövrlərdə Belarusa uzunmüddətli səfərlər etmişəm, bu ölkəni və insanlarını pis tanımıram. Buna görə də Belarusa hər şeydə etimad və etibar məsələsinə birmənalı münasibət bildirməyə çətinlik çəkirəm. Lukaşenko isə bir lider kimi xarakter adamıdır. Prinsiplərə və ənənələrə sadiq qalmağı, ən azı bunu nümayiş etdirməyi sevir. Amma unutmaq lazım deyil ki, Rusiyanın iradəsi olan yerdə bu prinsiplər və ənənələr yetərli deyil. Ruslar və belaruslar slavyanlar arasında bir-birinə ən yaxın olan xalqlardır.

Dağlıq Qarabağ məsələsində Belarusun ciddi təsir mexanizmlərinə malik olduğunu düşünmürəm. Lukaşenko müəyyən məsələlərdə vasitəçilik missiyasından çıxış edə, yaxud hansısa neqativ proseslərin daha sürətlə inkişaf etməsinin qarşısını ala bilər. Bundan daha çoxuna nail olması isə mümkün deyil".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Lukaşenkonun Azərbaycanı seçməsinin arxasındakı praqmatik maraqlar nədir" sualına cavabında öncə bildirdi ki, rəsmi Bakı Dağlıq Qarabağ məsələsində Belarusun Azərbaycana verdiyi dəstəkdən məmnundur.** "Belarus Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun həllinin tərəfdarıdır" fikri prezidentlərin imzaladıqları birgə bəyanatda da yer aldı. Bu bənddə "ölkələrin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı" cümləsinə xüsusi yer verildi. Bunun nəticəsidir ki, Belarus Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Ermənistanın müttəfiqi sayılsa da, ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyir: "Məsələn, İlham Əliyev Aleksandr Lukaşenko ilə görüşdə belə dedi: "Biz beynəlxalq qurumlarda bir-birimizi fəal dəstəkləyirik. Bizim ya Belarusun, ya da Azərbaycanın üzv olmadığı təşkilatlarda həmişə bir-birimizi dəstəkləməyimiz, söz deməyimiz xüsusilə dəyərlidir. Bu, xüsusilə əhəmiyyətlidir. Çünki əgər sən hər hansı təşkilatın üzvüsənsə, iclaslarında iştirak edirsənsə, həmişə yalana, böhtana, ədalətsizliyə cavab verə bilərsən. Lakin Belarus Azərbaycanın iştirak etmədiyi bəzi təşkilatların üzvüdür, həmçinin biz Belarusun iştirak etmədiyi bəzi təşkilatların üzvüyük. Ancaq bilirik ki, əgər bu qurumlar çərçivəsində ölkələrimizə qarşı əsassız hücum cəhdləri olarsa, biz həmişə öz prinsipial mövqeyimizi bildirəcəyik. Bu, çox dəyərlidir. Düşünürəm ki, burada iştirak edənlər mənim nə barədə danışdığımı bilirlər".

Aydındır ki, İlham Əliyev Belarus prezidentinin Avrasiya İqtisadi Birliyi və KTMT çərçivəsində Ermənistan prezidentinin Azərbaycan əleyhinə yönəldilmiş siyasətinə mane olduğunu nəzərdə tutur. Bir neçə dəfə bu cür toplantılarda Belarus və Qazaxıstan prezidentləri Ermənistan prezidentinin Azərbaycan əleyhinə təşəbbüslərinin qarşısını alıblar. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sonuncu İrəvan toplantısı da buna nümunədir. Belarus prezidenti həmin toplantıdan narazı qaldığını Ermənistan paytaxtında keçirilən birgə mətbuat konfransında açıq dedi, gündəmə çıxarılan mövzuların çiy olduğunu vurğuladı. Digər tərəfdən, Qazaxıstan prezidenti Nursultan Nazarbayevin İrəvan toplantısında iştirak etməməsi isə Ermənistana KTMT-yə yeni baş katibin seçilməsinə imkan vermədi. Həmin baş katib Ermənistanın təmsilçisi olmalı idi.

Lukaşenko Azərbaycan-Ermənistan qarşıdurmasına praqmatik nöqteyi-nəzərdən yanaşır. Lukaşenko Azərbaycana gəldiyi qədər Ermənistana getmir. Çünki Lukaşenko bilir ki, Azərbaycanla Ermənistana eyni münasibət göstərsə, rəsmi Bakı ilə iqtisadi və ticarət əməkdaşlığının miqyasını artıra bilməyəcək. Lukaşenkoya isə hazırda məhz yeni bazarlar lazımdır. Belarus prezidentinin Azərbaycana səfəri də məhz bu faktorla bağlı idi. Digər tərəfdən, Belarusla Azərbaycan arasında ortaq müəssisələrin yaradılması aktualdır".

**Ekspert qeyd etdi ki, Belarus məhsullarını Rusiya bazarına buraxmırlar. Belarus mallarının Avropaya da çıxış imkanları yoxdur. Ona görə də Lukaşenko məcbur qalıb kiçik bazarlar axtarışına çıxıb. Bu baxımdan, kasıb Ermənistan Lukaşenko üçün maraqsızdır:** "Ona görə də Lukaşenko Azərbaycanla Ermənistan arasındakı münaqişədə birincinin tərəfini seçib. Belarusla Azərbaycan arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Bakıdakı görüşdə prezidentlərin əsas fikri bundan ibarət oldu ki, iki ölkə arasında qısa müddət ərzində ticarət dövriyyəsi artırılmalıdır. Bunun üçün potensial var. Lukaşenkonun Bakıya verdiyi təkliflərdən biri budur: "Biz Azərbaycanda kənd təsərrüfatı müəssisələrini tam təhvil verməyə hazırıq". Artıq iki ölkə arasındakı əməkdaşlığın konkret nümunəsi var: Gəncədə Belarus markalı traktorların istehsalına başlanılıb.

Bundan başqa, Belarus Azərbaycanın dərman istehsalı bazarına da maraq göstərir. Azərbaycan dərman istehsalında tamamən idxaldan asılıdır. Azərbaycan hökuməti bu asılılığı azaltmaq üçün müxtəlif dövlətlərlə danışıqlar aparır. Bakı ətrafında bir neçə dərman zavodunun tikintisi başlayıb. Azərbaycan hökuməti bu işə böyük vəsait ayırıb. Ona görə də müxtəlif dövlətlər pay almaq istəyirlər. Azərbaycanda dərman istehsalına əsas iki ölkə maraq göstərir: Rusiya və İran. Belarus da bu prosesə qoşulmaq istəyir. Vaxtilə Belarus Azərbaycan kimi dərman idxalından asılı idi. Hazırda isə istifadə olunan dərmanların yarıdan çoxu Belarusda istehsal olunur.

Lukaşenko Bakıya səfəri zamanı iki ölkə arasında enerji əməkdaşlığından da danışdı. Ancaq "Belarus Azərbaycan neftini hansı yolla ala bilər və qiymət baxımından bu hər iki ölkənin maraqlarına cavab verəcəkmi" sualı hələ ki açıq qalır".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

# Erməni terrorçulara Tuncelidə abidə qoyulması məsələsi böyüdü






## Azərbaycanın Milli Qəhrəmanı Ərdoğanın baş məsləhətçisi ilə danışdı, abidənin söküləcəyinə söz verildi

**Türkiyənin Tunceli bölgəsinin Aşağıdoluca kəndində yerləşən erməni terrorçularının adını "əbədiləşdirən" abidə Azərbaycanda ciddi narazılıqla qarşılanıb. Erməni və PKK üzvlərinin qoyduğu "abidənin" üzərində ötən əsrin 90-cı illərində Qarabağda, Xocalıda azərbaycanlılara qarşı soyqırımlar törətmiş, azərbaycanlılara qarşı qəddarlığı ilə seçilən və 1993-cü ilin yayında öldürülən terrorçu Monte Melkonyanın adı da var.**

Erməni terrorçularına, əsasən də Melkonyana Türkiyədə abidə qoyulması Azərbaycan ictimaiyyətində narazılıqla qarşılanıb.

Moderator.az məsələyə Milli Qəhrəman İbad Hüseynovun *(İbad Hüseynov Melkonyanın Xocavənddə başını kəsdiyini deyir-E.S.)* münasibətini öyrənib. İbad Hüseynov abidə məsələsi ilə noyabrın 29-da Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın baş məsləhətçisi Yalçın Topçu ilə danışdığını bildirib: "Yalçın Topçunun bu məsələdən xəbəri yox idi, məndən öyrənəndə çox hirsləndi. Dedi ki, abidə qoyulan həmin ərazi hələ Atatürkün zamanından mübahisəli ərazidir. Orada ermənilər və erməniyönümlü PKK-çılar yerləşib. Yalçın Topçu onu da əlavə etdi ki, mütləq həmin ərazinin valisi ilə danışacaq. Əgər elə bir abidə varsa, dərhal söküləcək. Onu da əlavə etdi ki, sən Türkiyənin qəhrəmanısan, qürurusan, yaşayan əfsanəsisən, orada heykəl qoymaq lazım olsa, sənin heykəlin qoyulacaq".

**Deputat Aqil Abbas isə bu məsələ ilə bağlı çağırış edib:** "Sayın Abdulla Gül cocuq qatili Sərkisyana öz evində xanımının bişirdiyi plovu yedirdəndən sonra Melkonyana abidə qoyulması elə də böyük hadisə deyil. Türkiyə demokratik bir dövlətdir, ola bilər sabah Andronikə də bir heykəl qoydular. Türkiyə hökumətindən iki xırda xahişim var. Parisdə Andronikin qəbirüstü heykəli var. İllər öncə sovet nümayəndə heyətini fırlayıb aparırlar onun qəbrini ziyarət etməyə. Rəsul Rza da nümayəndə heyətinin tərkibindəymiş. Heykələ baxıb-baxıb, sonra da tüpürüb heykəlin sifətinə. İndi deyirəm, olar də, erməni qətliamına məruz qalanların nəvə-nəticələri və Melkonyanın qətlə yetirdiyi diplomatların, siyasi xadimlərin, hərbçilərin övladları, nəvələri oradan keçəndə hirslənib eləyərlər, abidənin üstünü murdarlayarlar. İçindən bir dəli-dolu çıxar, abidəni dağıda da bilər. Bu da ermənilərin bərk xətrinə dəyər, yaxşı olmaz. Ona görə də lazımdı ki, ora iki nəfər də fəxri qarovul qoyasınız ki, bunların qarşısını alsınlar.

İkinci xahişim də odur ki, ermənilər Şuşadakı Gövhər ağa məscidində də, Ağdamdakı məsciddə də donuz saxlayırlar. Donuz da Allahın ən zəhləsi gedən heyvandı. Mümkünsə, qardaşlarımız Montenin abidəsinin şərəfinə ermənilərdən xahiş eləsinlər məscidlərdə donuz yox, heç olmasa qoyun saxlasınlar".

Bəs Melkonyanın başı PKK-ya niyə lazım oldu? Terrorçulara məhz Türkiyədə abidə ucaltmaqla nəyə nail olmaq istəyirlər?

**Politoloq Natiq Miri "Yeni Müsavat"a bildirdi ki, PKK heç zaman ermənilərdən ayrı olmayıb və bu gün də ayrı deyil. PKK ilə erməni ASALA terror təşkilatı həmişə iç-içə olublar. Bu terrorçular bütün zamanlarda Qərbin, Rusiyanın və bəzi ərəb ölkələrinin Türkiyə əleyhinə istifadə etdikləri geosiyasi alət olublar və bu gün də dəyişən bir şey yoxdur:** "Türkiyədə kürd təşkilatları adı ilə fəaliyyət göstərən əksər təşkilatların birbaşa rəhbərliyi, ya da rəhbərlikdə təmsil olunan şəxslərin kimliyini yoxlasanız, əksəriyyəti ya ermənilərlə qarışıq nikahlı, ya da erməni kökənlidir. Sadəcə, bu şəxslər kürd kimliyi altında fəaliyyət göstərirlər, özlərini kürd adlandırırlar. Ona görə də bu cür abidənin ortalığa çıxması da təəccüblü deyil və növbəti Türkiyə əleyhinə atılan bir təxribat hadisəsidir. Bu addım təkcə Türkiyəni əhatə edəcək bir olay deyil, həm də Azərbaycan-Türkiyə münasibətlərinə xələl gətirmək məqsədilə atılmış addımdır. Bundan başqa, indiki dönəmdə Avropa Birliyi ilə Türkiyə arasındakı münasibətlərin gərginliyi fonunda da bu məsələyə baxmaq olar. Çünki Avropa Birliyi rəhbərliyi hər vəchlə Türkiyəni qarışdırmaq, onu cəzalandırmaqla qardaş ölkəni iddialarından və terrorla mübarizədən geri çəkilməyə vadar etmək istəyir. Türkiyə hakimiyyətinin üzərinə düşən isə təcili həmin abidəni oradan götürdüb zibilliyə atmaqdır. Azərbaycan ictimaiyyəti bunu gözləyir".

**Beynəlxalq Əsilsiz Erməni İddiaları ilə Mübarizə Dərnəyinin (ASİMDER) rəhbəri Göksal Gülbey isə publik.az-a açıqlamasında deyib ki, erməni terrorçusuna abidə qoymaq ASALA-nın şəhid etdiyi türk diplomatlara, Azərbaycanın Qarabağ şəhidlərinə təhqir və hörmətsizlikdir:** "ASALA terror təşkilatının liderlərindən olan Monte Melkonyan 1993-cü ildə Qarabağ müharibəsində erməni milislərinin komandiri olaraq iştirak edib. 1980-ci ildə ASALA terror təşkilatının üzvü olaraq Avropada türk diplomatları şəhid edib. Bu qatillərin adlarının yazıldığı abidə bölgədə HDP və DBP bələdiyyələrinin kimlərlə əməkdaşlıq etdiklərinin, həmçinin "Böyük Ermənistan" ideyasına xidmət etməsinin sübutudur. Daxili İşlər Nazirliyi və Tunceli valiliyi buna son qoymalıdır. Terror təşkilatları ilə mübarizəyə başladığımız bir vaxtda bu terrorçuların adına abidənin qoyulmasına icazə verilməməlidir".

**G.Gülbey bu məsələ ilə bağlı Türkiyə prezidentinə və baş nazirə müraciət edəcəklərini açıqlayıb:** "Bu qondarma abidənin sökülməsini və bunu edənlərin cinayət məsuliyyətinə cəlb olunmasını istəyirik".

❑ **Etibar SEYİDAĞA**

---

# Trampın seçkidə ikinci qalibiyyəti- səslərin sayılması başa çatdı

## Qanun pozuntularının iddia olunduğu 3 ştatdan birində Trampın qalib gəldiyi açıqlandı; **Elxan Şahinoğlu:** "Demokratiyanın beşiyinə iddialı olan ölkə demokratik seçki keçirə bilməyib"

**Amerikada noyabrın 8-də keçirilən prezident seçkilərinin nəticələrindən sonra yaranan qalmaqal bitmək bilmir. Prezident seçilən respublikaçıların namizədi Donald Trampın qələbəsini həzm edə bilməyən demokratların namizədi Hillari Klintonun qərargahı üç ştatda qanun pozuntularının olduğunu iddia edərək, hər üç ştatda səslərin yenidən sayılması ilə bağlı ərizə verib.**

Hər üç ştatda səslərin yenidən sayılması dünya gündəminin son günlərdə əsas müzakirə mövzusuna çevrildi. Hətta xanım Klintonun nəticələri dəyişəcəyi ilə bağlı iddialar da səslənməyə başladı. Mübahisəli ştatlar Viskinson, Miçiqan və Pensilvaniya idi. Artıq yaranan mübahisələrə son qoyulub. Belə ki, Miçiqan ştatında son nəticələr açıqlanıb və D.Trampın bu ştatda da qalib gəldiyi məlum olub. Bu da H.Klintonun qələbəsinə ümid edənlərin ümidlərini puça çıxarıb. Qanun pozuntularının iddia olduğu digər 2 ştatda belə xanım Klinton qalib gəlsə, nəticələr dəyişməyəcək. Çünki onunla Tramp arasındakı səs fərqini aradan qaldırmağa Viskinson və Pensilvaniya ştatlarının gücü yetmir.

Ekspertlər dünyanın əsas güc dövlətində gedən proseslərin ölkənin imicinə ciddi zərbə vurduğunu düşünürlər. İndiyə qədər dünyaya demokratiya dərsi keçən ABŞ-da bu ənənələrin olmasına olan inamın qırıldığı qeyd olunur.



**Siyasi şərhçi Elxan Şahinoğlu öncəliklə ABŞ-da sorğu sisteminə ciddi zərbənin olduğunu qeyd etdi:** "Amerikada son prezident seçkisi həqiqətən bu ölkənin imicinə zərbə idi. Birincisi, ondan başlayaq ki, Amerikadakı sorğu sistemi iflasa uğradı. Sorğuların əksəriyyəti məhz Hillari Klintonun qələbə çalacağını proqnozlaşdırırdı. Ancaq əksi baş verdi. Digər tərəfdən, Amerikanın az qala bütün mediası Klintonu dəstəkləyir, Donald Trampı isə qaralayırdı. Bu da demokratiya ruhuna uyğun deyildi. Özünü müstəqil adlandıran qəzetlər tərəfkeşlik edirdilər. Seçkidən sonra səslərin yenidən hesablanması isə Amerika tarixində bir ilk ola bilər. Bu o deməkdir ki, demokratiyanın beşiyinə iddialı olan ölkə demokratik seçki keçirə bilməyib".

**E.Şahinoğlu Trampın iddialarının da ciddi olduğunu düşünür:** "Trampın da qarşılıqlı iddiası var ki, seçkidən öncə başlanan səsvermə Hillari Klintonun xeyrinə saxtalaşdırılıb. Bu da ciddi iddiadır. Tramp da həmin səslərin hesablanmasını tələb edə bilər. Bu baş verərsə, Amerikada aləm dəyəcək bir-birinə. Təsadüfi deyil ki, bu vəziyyətdən hazırkı prezident Barak Obama son dərəcə narahatdır. Çünki Obama ölkəni qarışmış şəkildə tərk etmək istəmir. Obama seçki kampaniyasında birmənalı şəkildə Klintonu dəstəklədi, "Tramp kimi insana nüvə silahını etibar etmək olmaz" kimi ifadələr işlətdi. Ancaq bu açıqlamalar keçmişdə qaldı. Obama Trampı prezident seçilməsi münasibətilə təbrik edib, onu Ağ Evə dəvət edib, gələcək prezident kimi əlini sıxıb. Belə çıxacaq ki, Obama "tələsib". Trampın prezidentliyinin şübhə altına alınması Obamanın da imicinə zərbə olacaq. Obama isə bu şəkildə Ağ Evi tərk etmək istəmir. Ona görə də Obama Klintona məsləhət görür ki, səslərin yenidən hesablanması kimi siyasətə baş vurmasın. Doğrudur, səslərin yenidən hesablanması Yaşıllar Partiyasının liderinin təşəbbüsüdür. Ancaq hiss olunur ki, Hillari Klinton ikili oynayır. O da Obama kimi seçki gününün sabahısı Trampı təbrik edib. Ancaq indi susur və səslərin yenidən hesablanmasına hələ ki etiraz etmir".

**Siyasi şərhçi 2000-ci ildə baş verən buna bənzər hadisəyə toxundu:** "2000-ci ildə oxşar hadisə baş verdikdə o zamankı vitse-prezident Albert Qor mədrik hərəkət etmişdi. O ildəki seçkidə Corc Buşun Qor üzərindəki qələbəsi sual altında idi, seçicilərin ümumi sayının vitse-prezidentə səs verdiyi irəli sürülürdü. Buna baxmayaraq, Albert Qor nəticələri tanıdı və səslərin yenidən sayılması məqsədilə məhkəməyə baş vurmadı. Çünki Qor Amerikanın siyasi sistemini mürəkkəb duruma sürükləmək istəmədi. Bütün dünyanın gözü Amerikadadır. İndi Amerikada "qalib kim olub" ətrafında müzakirələr genişlənsə, bu, Amerikanın dünyadakı nüfuzunu da aşağı endirəcək. Bu isə artıq Amerikanın milli təhlükəsizlik maraqlarına zərbədir".

**Müsahibimiz ABŞ-dakı seçki sisteminə də münasibət bildirdi:** "Amerikalılar mühafizəkardırlar, yüz illər öncə qəbul etdikləri qanunları dəyişmirlər. Ancaq hazırkı seçki sisteminin heç bir müsbət tərəfi yoxdur. Məncə, son hadisə seçki qanununa göz gəzdirməyə məcbur etməlidir. Bu nonsensdir: Klintona daha çox vətəndaş səs verib, ancaq prezident Tramp seçilib. Doğrudur, bəzi ştatlarda çox, digərlərində az əhali yaşayır və iki ştat - Texas və Kaliforniyanın əhalisinin sayı prezidenti müəyyənləşdirməyə imkan verir. Bu halda digər ştatlar kölgədə qalır. Ona görə də Amerikanı quranlar vaxtilə mürəkkəb seçki qanunu yazıblar. Ancaq bu cür seçki qanunu ümumi nəticəyə kölgə salır".

❑ **Cavanşir ABBASLI**

**Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin sabiq nəzarətçisi Rövşən Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi keçirilir. R.Əhmədov Nəqliyyat Nazirliyinin sabiq məmuru Çingiz Baxşıyevin şikayəti əsasında həbs olunub.**



# Öz qohumunu həbs etdirən məmurun sirləri açılır - sensasion detallar

## Çingiz Baxşıyev Rövşən Əhmədovu susdurmaq, gizli biznesi haqda məlumatların yayılmasının qarşısını almaq üçün qandallatdırıb

Şikayətçi iddia edib ki, yaxın qohumu olan R.Əhmədov onun 50 kiloqram qızılını ələ keçirib. Rövşən Əhmədov isə ittihamı qəbul etmir. Ç.Baxşıyevin qohumunu həbs etdirməsi haqda "Yeni Müsavat"ın 10 may 2016-cı il tarixli sayında yazmışdıq. "Sabiq müşavir haqda sensasion məlumatlar - özəl dosye" sərlövhəli (http://musavat.com/news/olke/sabiq-mushavir-haqda-sensasi-on-melumatlar-ozel-dosye_346167.html ttp://musavat.com/news/olke/sabiq-mushavir-haqda-sensasi-on-melumatlar-ozel-dosye_346167.html) yazıda Ç.Baxşıyevin barəsində çox ciddi iddialar yer almışdı. Yada salaq ki, Ç.Baxşıyev uzun illər nəqliyyat sektorunda rəhbər vəzifələrdə çalışıb, son iş yeri nazir müşaviri postu olub. Onun adı mətbuatın gündəminə bu ilin əvvəlində evindən 50 kiloqram qızıl oğurlanan məmur kimi gəlib. Məlum oldu ki, sabiq müşavir Rövşən Əhmədovdan hüquq-mühafizə orqanlarına şikayət yazıb, onu evindən 50 kiloqram qızıl oğurlamaqda suçlayıb. R.Əhmədovu bu şikayət ərizəsi əsasında həbs etsələr də, sonradan ona oğurluqla əlaqəli ittiham verməyiblər. Sabiq müşavirin işçisini dələduzluqda ittiham edib barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçiblər. Bu kiçik uyğunsuzluğun arxasında gizlənən böyük məqamlar var.

Redaksiyamıza daxil olan məlumata görə, Rövşən Əhmədovun barəsində ərizə yazan günə qədər Çingiz Baxşıyevlə münasibətləri normal olub. Ç.Baxşıyevin tapşırıqları əsasında müxtəlif bağlamaları müxtəlif ünvanlara çatdırıb. R.Əhmədov daşıdığı bağlamaların içində pul, qızıl olmasından xəbərsiz olub. Sadəcə, tapşırıqları yerinə yetirməklə işini görüb. Bir sözlə, R.Əhmədov Ç.Baxşıyevin gözdən-qulaqdan uzaq işləri üzrə qeyri-rəsmi köməkçisi olub. Buna görə də Ç.Baxşıyevin şəxsi işləri ilə bağlı sirlərindən xırdalıqlarına qədər məlumatlı olub. Günlərin birində isə R.Əhmədov Ç.Baxşıyevin yanından uzaqlaşmaq istəyib və bu addımı sonradan onu həbsə aparıb. Əvvəlcə xalası oğlunu xeyli dilə tutmağa, özündən kənarlaşmasına imkan verməməyə çalışan Ç.Baxşıyev bunun mümkün olmadığını gördükdə hədələrə keçib. R.Əhmədova açıq mətnlə həbsə atılacağını, həbsdə həyatına son qoyulacağını deyib. Buna baxmayaraq, R.Əhmədov Ç.Baxşıyevdən uzaqlaşmaq qərarını dəyişməyib. Və məlum 50 kiloqramlıq qızılın oğurlanması iddiası ortaya çıxıb.

Maraqlıdır ki, noyabrın 22-də keçirilən məhkəmə prosesində Çingiz Baxşıyev ibtidai istintaq dövründəki ifadələrini dilə gətirməkdən yayınıb.

Məhkəmədə dedikləri Ç.Baxşıyevin gizlətmək istədiyi, geniş ictimiyyət üçün olmayan məlumatlardır. Belə ki, o, ibtidai istintaq zamanı verdiyi ifadəsində göstərib ki, departament sədri olan dövrdən 2 aydan bir həyat yoldaşı ilə mütəmadi olaraq Avropa ölkələrinə və xaricə gedib. Maraqlıdır ki, ondan səfərlərin məqsədi haqda soruşmayıblar. Aylıq məvacibi 800-900 manat olan bir məmurun bu gəzintilərə xərclədiyi pulları hansı hesabdan aldığı haqda da sual verməyiblər.

Odur ki, onun danışdıqlarını, sonradan təkzib etdiyi məlumatları ittiham aktına yazıblar. Ç.Baxşıyev deyib ki, 2015-ci ilin yay aylarında növbəti səfərə gedəndə Rövşən Əhmədovu yanına çağırıb və yoldaşı ilə xaricə gedəcəyini, evdə heç kimin olmayacağını söyləyib. Ona skoçlanmış halda olan bağlamanı saxlamaq üçün verib. R.Əhmədov bağlamada nə olmasından xəbərsiz olub. Ç.Baxşıyev xarici səfərdən 1 ay sonra qayıdıb və bağlamanı geri alıb.




2016-cı il aprelin 9-da hüquq-mühafizə orqanına yaxın əlaqələri vasitəsilə müraciət edib və göstərib ki, Rövşən Əhmədov onun 50 kiloqram qızılını oğurlayıb. Bundan sonra R.Əhmədov məhkəmə qərarı olmadan 1 həftə saxlanılıb. 18 aprel 2016-cı il tarixdə Nərimanov Rayon Məhkəməsi R.Əhmədovun barəsində həbs-qətimkan tədbiri seçib. Aylarla davam edən və Rövşən Əhmədovun günahsızlığını ortaya qoyan istintaq müddətində Ç.Baxşıyev bir neçə dəfə dindirilib. Amma ona 50 kiloqram qızılı hansı hesabdan alması haqda sual verən olmayıb. Müşavir ilkin ifadəsində 50 kiloqram qızılın öz evindən oğurlandığını deyib. Sonra isə ifadəsini dəyişib, deyib ki, qızıllar qızı Fatma Baxşıyevanın evindən oğurlanıb.

Ç.Baxşıyev ziddiyyətli ifadələr verməsinə baxmayaraq onun şikayəti əsasında CM-in 178-ci (dələduzluq) maddəsi ilə başlanan və Rövşən Əhmədovun həbsi ilə davam etdirilən cinayət işinin istintaqı bu axarla aparılıb.

Hələ ibtidai istintaq dövründə Ç.Baxşıyev hüquq-mühafizə orqanlarının rəhbərliyində təmsil olunan ayrı-ayrı vəzifəlilərin adını çəkməklə R.Əhmədovun yaxınlarına onu həbsxanalarda çürüdəcəyi haqda xəbərlər göndərib. İstintaq getdiyi bir vaxtda Ç.Baxşıyevin 50 kiloqram qızılının oğurlanması iddiası haqda mətbuatda yazılar dərc olunub. Bu iddia geniş rezonansa səbəb olandan sonra Ç.Baxşıyev ifadələrini dəyişib, evindən sellofan torbada olan qızılların oğurlandığını bildirib, qızılın ümumi çəkisinin 50 kiloqram deyil, 5 kiloqram olduğunu qeyd edib.

Ç.Baxşıyevin şikayəti əsasında ilkin olaraq CM-in 178-ci maddəsi ilə cinayət işi başlansa da, sonradan cinayət işi 179-cu (mənimsəmə) maddəyə tövsif olunub.

Çingiz Baxşıyev məhkəmədə ilkin ifadəsində göstərdiyi 50 kiloqram qızılla bağlı suala cavab verə bilməyib. O, adının general Rail Rzayevin qətlinə qarışmasından danışıb. Vaxtilə bu qətldən dolayı ləğv edilmiş MTN-də dindirilməsinin üstündən sükutla keçməyib. Özünün həmin işə aidiyyətinin olmadığını deyib.

Ümumilikdə 50 kiloqram qızılının R.Əhmədov tərəfindən mənimsənildiyini diqqətə çatdırıb. Sərbəst ifadəsində həmin qızılların olduğu bağlamanı "Nizami" kinoteatrının yanında yerləşən mənzilində R.Əhmədova verdiyini hakimin diqqətinə çatdırıb. Dövlət ittihamçısının suallarını cavablandırarkən isə həmin sellofan torbanın Rövşən Əhmədova metronun "28 May" stansiyası yaxınlığındakı evində verdiyini deyib. Bildirib ki, qızıllar onun deyil, qızları Fatimə və Könülə məxsus olub.

Ç.Baxşıyev qızlarına məxsus qızılları özü xaricə gedərkən niyə Rövşən Əhmədova verməsi sualına aydınlıq gətirə bilməyib. Bundan başqa, məhkəmədəki ifadəsində göstərib ki, qızılları R.Əhmədova skoçlanmış qutuda necə veribsə, elə də geri alıb. Yəni skoç açılmayıb.

Üstəlik, həmin qutuların içində məhz qızıl əşyaların olmasını təsdiq edən hər hansı bir sənəd, fakt da ortada yoxdur. Məhkəmədə verilən suallara cavab verən bilməyən Ç.Baxşıyev R.Əhmədov tərəfindən zəhərləndiyini də deməkdən çəkinməyib.

Belə məlumatlar var ki, Ç.Baxşıyev R.Əhmədovun onunla işləmək istəməməsini özü üçün yəqinləşdirdikdən sonra 10 il işçisi olmuş qohumunu nə yolla olursa-olsun susdurmaq qərarına gəlib.

Redaksiyamıza danışan mənbə deyib ki, R.Əhmədovun Ç.Baxşıyevlə işləməkdən yayınması əbəs olmayıb. Belə ki, o, Ç.Baxşıyevin qanunazidd əməllərindən, cinayət xarakterli fəaliyyətindən xəbərdar olub. Buna görə də ondan uzaqlaşmaq qərarı verib. Hazırda məhkəmə gedir və Rövşən Əhmədovun saxta ittihamlarla üz-üzə qaldığı hər ötən prosesdə üzə çıxan faktlarla təsdiqini tapır.

Məlumatlara görə, Rövşən Əhmədovun bildikləri çoxdur, onu həbs etdirməklə Ç.Baxşıyev sirlərinin üzə çıxmasının qarşısını almağa çalışır. 800 manat maaş alan Ç.Baxşıyevin təkcə Bakı şəhərində dəyəri 100 milyon dollarla ölçülən əmlakları var. Azərbaycanın rayonlarında da onun saysız-hesabsız istirahət mərkəzləri, villaları mövcuddur. Nazirin müşaviri bu qədər əmlakları almaq üçün külli miqdarda pulu hansı biznes hesabına əldə edib?

Bu sualın cavabını bilən əsas şahid Rövşən Əhmədovdur. Onun bu gün həbsdə olması da məhz həmin biznesin detallarına vaqif olmasından irəli gəlir. Hüquq-mühafizə orqanları R.Əhmədovun niyə görə bu ittihamla üz-üzə qalması ittihamını araşdırsalar, ortaya çox mübhəm faktların çıxacağı da gələn məlumatlar sırasındadır.

❑ **E.HÜSEYNOV**

**P.S.** ***Qarşı tərəfi də dinləməyə hazırıq.***

# Saxta avro satanlar tutuldu



**Daxili İşlər Nazirliyi (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları ölkənin maliyyə sisteminə ciddi təhlükə yaradan saxta pulların hazırlanması və dövriyyəyə buraxılmasının qarşısının alınması istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirib.**

DİN-in mətbuat xidmətindən verilən xəbərə görə, Baş İdarəyə 3 nəfərdən ibarət cinayətkar dəstənin qeyri-qanuni yolla ölkəmizə külli miqdarda saxta xarici valyuta olan avro keçirmələri, o cümlədən həmin əsginazların satışı ilə məşğul olmaları barədə əməliyyat məlumatı daxil olub.

Həyata keçirilən təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində həmin dəstənin üzvləri - Ukrayna vətəndaşı Valentina Bilik, Gürcüstan vətəndaşı Taleh Nayibov və Abşeron rayon sakini Kamandar Əmirov Bakı şəhərində ayrı-ayrı şəxslərə saxta 500 avroluq əsginazlar satan zaman saxlanılıblar.

Onların üzərinə baxış keçirilən zaman əlavə olaraq 9500 avro məbləğində saxta pul aşkar olunaraq götürülüb.

Keçirilən ekspertiza zamanı müəyyən edilib ki, aşkar edilən saxta avrolar həqiqi əsginazlardan heç də çox fərqlənmir və onların müdafiə nişanları xüsusi üsullarla saxtalaşdırılıb.

Dəstə üzvləri bildiriblər ki, saxta pul əsginazlarını paytaxt ərazisində və respublikanın rayonlarında fəaliyyət göstərən ticarət mərkəzlərində, əhalinin sıx olduğu yerlərdə satıb həqiqi valyutaya çevirəndən sonra ölkə ərazisini tərk etmək niyyətində olublar.

Faktla bağlı Baş İdarənin İstintaq şöbəsində cinayət işi başlanıb. Araşdırmalar davam etdirilir.

YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

# Düşmən ölkəyə ləngiyən ilk səfərin ilginc pərdəarxası

Azərbaycanda İrana bağlı xəstəxana olarsa, iranlı həkimlər Azərbaycana gələcəklər. Dördüncü layihə isə Azərbaycanın Neftçala rayonunda İranla Azərbaycanın birgə fabrikinin işə başlamasıdır. Bu zavodda İran avtomobillərinin istehsalı nəzərdə tutulub".

Qeyd edək ki, sözügedən layihələrin Bakıda İran-Azərbaycan hökumətlərarası iqtisadi komissiyanın iclasında müzakirə olunduğu deyilir. Komissiyada habelə prezidentlərin növbəti görüşünün proqramının hazırlandığı bildirilir.

*****

**Lakin E. Şahinoğluna görə, Azərbaycanla İran arasında genişlənən əməkdaşlığa rəğmən, Tehran-İrəvan əlaqələri Azər-**

**İran prezidenti Həsən Ruhaninin ötən həftə İrəvana nəzərdə tutulan səfəri baş tutmadı. Hər halda, İranın bir sıra mötəbər KİV-ləri - o sırada "Mehr" dövlət agentliyi də var - rəsmi ziyarətlə bağlı anons etmişdi. Xatırladaq ki, Ruhani prezident postunda ikən Azərbaycana iki dəfə (2014, 2016) səfər etsə də, hələ Ermənistanda olmayıb. Bu üzdən səfəri ən çox işğalçı ölkənin səbirsizliklə gözlədiyi şəksizdir.**

## Ermənistan İran prezidentinin həsrətində - Bakı amili...

### Prezident İlham Əliyevə minnətdarlıq göndərən Həsən Ruhani Sərkisyanla görüşə niyə tələsmir? **erməni şərhçi:** "Əlimizdəki qandallar qaldıqca, Tehranla əlaqələrdə uğur olmayacaq"; **azərbaycanlı ekspert:** "Azərbaycanın İrandan ən böyük gözləntisi odur ki..."

Bəs artıq iki dəfə Bakıda olan Ruhani İrəvana gedəcəkmi? Əksər müşahidəçilərə görə, yəqin ki. Sadəcə, tarix qeyri-müəyyən qalır. Belə görünür ki, İran tərəfdə, hər halda, müəyyən tərəddüdlər qalır. Bu tərəddüdləri iki qismə bölmək olar - siyasi (geosiyasi) və iqtisadi xarakterli olanlar.

*****

**Təsadüfi deyil ki, erməni tərəfi səfərin ləngiməsindən artıq narahatlıq keçirməyə başlayıb. Çünki bundan öncə, daha bir dəfə ziyarət təxirə salınmışdı. Məsələn, Iragir.am saytının siyasi şərhçisi Naira Ayrumyan bu xüsusda yazır:** "Ötən həftə də ötdü, amma İran prezidenti Həsən Ruhani yenə də Ermənistana təşrif buyurmadı. Halbuki təxminən on gün qabaq İran KİV-ləri anons etmişdi ki, Ruhani Ermənistana gedəcək. Anons real idi, çünki son vaxtlar Tehran-İrəvan münasibətlərində sanki bir hərəkətlilik müşahidə olunmaqda idi. Bu xüsusda keçən həftə mühüm bir xəbər o oldu ki, Avropadan ilk yük yeni tranzit dəhlizi üzrə - Qara Dənizdən, Gürcüstandan və Ermənistandan keçməklə İrana çatdırılıb. Bu barədə danışan İran rəsmisi Qulamhüseyn Əmiri deyib ki, son illər Avropadan yüklərin daşınmasında Türkiyə tərəfi ilə bağlı problem olduğundan Tehran başqa ölkələrlə alternativ marşrutla bağlı danışıq aparmalı olub. Bu zaman Azərbaycan tərəfi də şikayətlənir ki, Tehran İrandan Gürcüstana və Rusiyaya Azərbaycandan keçməklə yüklərin tranzitini təmin edəcək dəmir yolunu tikib tamamlamağa tələsmir".

**Erməni icmalçı ardınca yazıb:** "Ruhaninin Ermənistan səfəri nəzərdə tutulurdumu, yoxsa bu, sadəcə, piar-zondaj idi? Bəlli deyil. Ola bilsin səfər bu il reallaşsın. Ancaq aydındır ki, İran-Ermənistan münasibətlərində təkamül yolu ilə uğur əldə eləmək çətin olacaq. Sıçrayış lazımdır ki, bütün baryerləri süpürüb atsın. Di gəl ki, İrəvan maneələri süpürüb atmaq əvəzinə yeni baryerlər qurur, köhnələri isə möhkəmləndirir. Hər dəfə Tehran ikitərəfli ticari-iqtisadi əlaqələri inkişaf etdirməyi təklif edəndə Ermənistan əlindəki qandalları göstərir. Yəni ki, o, Avrasiya Birliyinə bağlıdır və gömrük-ticarət sistemində müstəqil deyil. Bəzi ekspertlər də hesab edirlər ki, Ermənistan Avrasiya Birliyində olduqca, onun nə İran, nə də Gürcüstanla yaxın əlaqələri mümkün deyil".

*****

Azərbaycanın isə Rusiyanın marioneti və satelliti olan işğalçı ölkədən fərqli olaraq, təbii ki, belə problemləri yoxdur. Buna növbəti sübut kimi, İran-Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri, rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətinin hazırda davam edən Bakı səfərini göstərmək olar.

Dünən prezident İlham Əliyev Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Ölkə başçısı Azərbaycanla İran arasında əlaqələrin bütün sahələrdə çox uğurla inkişaf etməsindən məmnunluğunu ifadə edib, bu işdə Hökumətlərarası Komissiyanın həmsədri kimi Mahmud Vaezinin rolunu xüsusi vurğulayıb, ölkələrimizin həyata keçirdiyi birgə layihələrin qlobal xarakter daşıdığını deyib. Prezident ümidvar olduğunu bildirib ki, gündəlikdə hələ çox məsələlər var və onlar da öz həllini ardıcıllıqla tapacaq, ölkələrimiz istədikləri məqsədlərə nail olacaq.

Vaezi isə öncə Həsən Ruhaninin səmimi salamlarını dövlət başçısına çatdırıb. İki prezident arasında çox yaxşı qarşılıqlı etimadın yaranmasından məmnun olduğunu deyən M.Vaezi bildirib ki, "əgər bu gün iki ölkənin mənafeyinə uyğun lazım olan addımlar ata biliriksə, bu, hər iki prezidentin dəstəyi sayəsində mümkün olub". O həmçinin komissiyanın gördüyü işlər barədə İ.Əliyevə məlumat verib. Dövlət başçısı iranlı həmkarının salamlarına görə minnətdarlıq edib, onun da salamlarını H.Ruhaniyə çatdırmağı xahiş edib.

*****

**"İran-Azərbaycan regional əməkdaşlığı İran-Ermənistan əməkdaşlığını üstələyir". Bunu isə politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, hazırda İranla Azərbaycan arasında bir neçə birgə layihə var ki, onların reallaşması əlaqələri daha üst səviyyəyə qaldıracaq:** "Birinci layihə Astara (Azərbaycan) - Astara (İran) dəmiryol xəttidir. Bu, yeni dəhlizdir və Cənubla Şimalı birləşdirir. Astara-Astara dəmiryol xəttinin tikintisinin 2016-cı ilin sonuna kimi başa çatdırılması planlaşdırılır. İkinci layihə sonrakı mərhələdə Astara-Rəşt dəmiryol xəttinin tikintisidir. Birinci layihədən fərqli olaraq bu dəmir yolunun tikintisi bir qədər uzun çəkəcək. Çünki bu xəttin uzunluğu 160-170 km-dir. Üçüncü layihə Pirallahı qəsəbəsində dərman zavodunun tikintisidir. Bundan başqa, İran Azərbaycan ərazisində xəstəxana tikmək istəyir. Məlumdur ki, Azərbaycan vətəndaşlarının bir hissəsi müalicə üçün İrana gedirlər. İranda tibbi xidmət və dərmanlar nisbətən ucuzdur.

**baycanı əvvəlki tək narahat edir:** "Həsən Ruhaninin Ermənistana rəsmi səfəri gözlənilir. Orada onun keçirəcəyi görüşlər və imzalanacaq sazişlər sözsüz ki, Bakıda müzakirə predmeti olacaq. Ruhani İlham Əliyevlə görüşlərində Qarabağ münaqişəsindən danışarkən Azərbaycanın ərazi bütövlüyünün vacibliyini vurğulayıb. İran prezidentinin eyni sözləri İrəvanda təkrarlamasına ehtiyac var. Ancaq bu ifadənin əvəzinə "biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdarıq" sözləri işlənərsə bu rəsmi İrəvanın xeyrinə olacaq".

**Politoloq hesab edir ki, bütün hallarda Azərbaycan cəmiyyətinin İrandan ən böyük gözləntisi odur ki, Tehran Ermənistan siyasətində Azərbaycanın maraqlarını ön planda tutsun.** "İranla Azərbaycan arasında konkret layihələr var. İranla Ermənistan arasında isə konkret ortaq layihə azdır. Ermənistan kiçik dövlətdir, bazarı da kiçikdir, potensialı yoxdur. Yəni praqmatik baxımdan da İrana Azərbaycanla əməkdaşlığı genişləndirmək daha məqbuldur".

*****

Sadalananlar fonunda İran prezidentinin İrəvanda Serj Sərkisyanla görüşə can atmağa tələsməməsi haradasa anlaşılan görünür. Bu yerdə qeyd edək ki, dekabrın 13-də İsrailin baş naziri Benyamin Netanyahunun Azərbaycana səfəri gözlənilir. Böyük ehtimalla, bu səfər Tehranda müəyyən qıcıq yaradacaq. Ola bilsin, Ruhaninin Ermənistan ziyarətinin ləngiməsi həm də bununla bağlı olsun və ya Netanyahunun səfəri ilə eyni vaxta salınsın. Bir növ "balans" yaratmaq üçün...

❑ **Siyasət şöbəsi**

# Şən camaat üçün diffensiasiya



**Samir SARI**

**Bir çox jurnalistlərin sevimli ibarəsi ilə desək, deyim, biləsiniz (əslində artıq bilirsiniz), xalqımızın üstün cəhətlərinin başında pozitivliyi, daima şən ovqatda olması gəlir.**

Hər nə baş verir, versin, hər zaman optimistik və hər şeyə ironik, satirik prizmadan yanaşa bilirik. Düzdür, bəzən bunu arsızlıq kimi qələmə verənlər də olur, amma qəti əlaqəsi yoxdur, əmi canı. Biz sovet vaxtından şən camaatıq, elə də qalırıq, hər cür qaranlıqda işıq axtarırıq və tapırıq.

Hətta son həftələrdə ölkədə intihar statistikasının artmasına münasibət bildirərkən də məsələyə pozitiv yöndən yanaşan respondentlərimiz olur. Məsələn, dünən biri yazmışdı ki, təqaüdçülərin intiharı hökumətə sərf edir, vaxtından tez ölürlər, bir neçə aylıq (illik) pensiyaları hökumətə qalır, büdcəyə xeyir edir.

Budur, dünən gecə qaz və işığın satış qiymətlərini qəfildən diffensiasiya eləyiblər, amma bu, xalqımızın ovqatına bir elə də pis təsir göstərməyib.

Çünki qiymətləri artırmaqla diffensiasiya eləmək eyni şey deyil. Allaha şükür, hamımız savadlı adamlarıq, başa düşürük ki, istəsələr o adı çəkilən şeylərin qiymətini yarım qat (lap ikiqat) artırardılar, məsələ bitərdi, amma diffensiasiya edirlərsə, demək, məqsəd başqadır.

Təvazökarlıqdan Nyu-York birjasının yerləşdiyi küçə qədər uzaq olsa da, deyim ki, minlərlə iqtisadi, siyasi termin bilən adam kimi, bu diffensiasiya söhbəti əvvəlcə mənə də çöçün gəldi. Elə bildim, nəsə zırıltı bir şeydir, devalvasiyadan da pis andırdır.

Hətta bir dost-simsar adam yazmışdı ki, axırı "...asiya" ilə qurtaran terminlərdən heç vaxt yarımamışıq. Amma araşdıranda məlum olur ki, "diffensiasiya" heç də "devalvasiya"nın tayı deyil.

Ümumi götürsək, qəpik-quruş söhbətidir. Uzun sözün qısası, məsələ ondadır ki, indən belə qazı, işığı çox yandıranlar çox pul verəcəklər, amma limitini, əndazəsini keçməyənlər ziyana düşməyəcəklər.

Yəni bir növ hökumət xalqa "qənaətcil ol, israfçılıq etmə" deyir.

Bu təzə söhbət deyil. Bir ara, 7-8 il əvvəl bu xüsusda bir sosial reklam da çəkilmişdi: ata girir otaqlarda boşuna yanan işıqları söndürür, ayın başında isə evə tort alıb gətirir ki, bax, qənaət edəndə adam tort yeyir.

Yaxşı reklam idi. Yəqin o çarxa baxan tortsevərlər sırf tort üçün elektrik enerjisinə bir xeyli qənaət ediblər.

Yaxşı olar ki, Tarif Şurası gələcəkdə benzinin və dizel yanacağının qiymətini də qaldırmasın, diffensiasiya eləsin. Ciddi deyirəm.

Çətin şey deyil. 1,5-2,2 mühərrik gücü olan avtomobilin bir ayda yandırdığı yanacağın orta miqdarını götürürsən, limit təyin edirsən, kim o limiti keçsə, zəhmət çəksin, artıq pul ödəsin.

Əlbəttə, onda burdan Şamaxıya gedib-gələnə qədər bir barel benzin yandıran ciplərlə "kasıb maşını" adlanan avtomobillərin yanacaq/pul sərfiyatı arasında fərq olacaq. Kasıblar ziyan çəkməyəcək, əvəzində ofisiantın cibinə dilxoşluq üçün yüzlük basanlar daha bir yüzlüyü də benzinə verəcəklər.

Vaxtilə Türkmənistanda yanacağın qiyməti diffensiasiya edilmişdi. Daha dəqiqi, orada ölkə sürücülərinə ayda 120 litr müftə benzin verirdilər, daha uzun məsafələr qət etmək istəyənlər, beləliklə, daha çox benzin yandıranlar limitdən artıq işlətdikləri yanacaq üçün pul ödəyirdilər. Amma sonra türkmən qardaşlarlar da bizə baxdılar, benzinin qiymətini birdən-birə 8 dəfə artıraraq, bizim pulla 22 qəpik elədilər. Heç dəmə, bundan əvvəl limitdən artıq işlədilən benzinin qiyməti 2,75 qəpik imiş - iki litri təxminən 6 qəpik.

Ancaq, açığı, suyun satış qiymətinin diffensiasiya edilməsinə qarşıyam. Xalqımız su quşudur, xoşlayır ki, hər gün çimsin, şırhaşırla axan suyun altında dayansın. Belə olanda hamı limiti keçəcək. Suya xəsislik edəndə də camaatı çirk-pas basacaq. Onsuz da tez-tez sosial şəbəkədə vay-nöfsə qopur ki, tər iyindən metroya girmək olmur.

Hər necə olsa da, son yenilik xalqımızın şən və hazırcavab insanlar kəsiminin ovqatına təsir etməyib və etməyəcək. Facebookda işıq və qazın satış qiymətinin diffensiasiyasına aid baməzə statuslar bir-birinə calanıb. Və bunun arsızlıqla-filanla qətiyyən əlaqəsi yoxdur, deyim, biləsiniz.

YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

# Türkiyə-Rusiya alyansı Qarabağa nə vəd edir?

## Qabil Hüseynli: "Rusiya ilə Ermənistan o qədər yaxınlaşıb ki, problemin siyasi vasitələrlə həlli mümkünsüz görünür"

**Bir il öncə pisləşən Rusiya-Türkiyə münasibətləri artıq nəinki normallaşıb, həmçinin daha da istiləşməkdədir. Ekspertlər iki qonşu ölkənin əlaqələrinin düzəlməsinin Azərbaycan üçün də vacib olduğunu deyirlər. Xüsusilə Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycan qədər maraqlı olan qardaş Türkiyənin Rusiya ilə yaxınlıq sayəsində ən ağrılı problemimizin həllinə ciddi töhfə verəcəyi deyilir.**

İddialara görə, ABŞ-ın yeni prezidenti Donald Trampın da Qarabağ məsələsinin həllində böyük rol oynaya biləcəyi vurğulanır. Səbəb kimi Barak Obama dövründə Rusiya və Türkiyə ilə əlaqələri kəskin şəkildə pisləşən Amerikanın bu iki dövlətlə əlaqələrinin qurulmasının vacib olması ilə bağlı Trampın verdiyi açıqlamalar göstərilir.

**Lakin politoloq Qabil Hüseynli** Türkiyənin Qərbdən uzaqlaşıb, Rusiyaya yaxınlaşmasını Qarabağ məsələsində ümidverici amil saymır: "Türkiyə prezidenti Ərdoğan Sankt Peterburqda Putinlə görüşəndə beş rayonun qaytarılması məsələsi həll edilmiş kimi görünürdü. Çavuşoğlu da bu məsələni çox böyük sevinclə dünyaya və Azərbaycan xalqına çatdırdı. Amma sonrakı proseslər sanki donub qaldı. Proseslər göstərdi ki, Rusiya, sən demə, bu məsələlərdə sona qədər səmimi deyilmiş. Hətta bir münaqişənin həllinə mane olacaq növbəti gedişlər etdi - Ermənistana raket silahlar göndərdi. Ermənilər bundan təkcə silah kimi deyil, psixoloji amil kimi istifadə edərək, nüvə silahına malik olmaları barədə dezinformasiyalar yaydılar. Ermənilər artıq Rusiyanı bu proseslərdə birbaşa iştirak edəcək ölkə kimi təqdim edirlər. Hətta Ermənistan prezidenti yaxınlarda bir çıxışında açıq şəkildə dedi ki, biz istəsək, Azərbaycanı təslimçi sülhə vadar edərik, ciddi zərbə vurarıq. Öz ölkəsində nüfuzunu itirən bir şəxsin bu açıqlamasından sonra Rusiyadan nə qədər ilhamlandığının şahidi olursan".

**Q.Hüseynli Rusiyanın Qafqazda daima pozucu işlər apardığını da qeyd etdi:** "Bunun bir tərəfi Azərbaycana qarşı yönəlib, digər tərəfi isə Türkiyəyə qarşı istənilən an yönələ bilər. Əgər Rusiya Ermənistanla hərbi ittifaq yaradırsa, Türkiyə də Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycanla hərbi ittifaq yaratmaq üçün addımlar atmalıdır. Türkiyə indiyə qədər bu problemin həlli üçün, proseslərin beynəlxalq aləmdə ölkəmizin xeyrinə dəyişməsi üçün xeyli əziyyətlər çəkib. İndiki şəraitdə Türkiyə və Rusiya arasındakı yaxınlaşma ilə verilən bəyanatlar, görülən işlər ciddi əhəmiyyət daşımır. Lavrovun Türkiyəyə səfəri başlayıb, bu səfərdə Dağlıq Qarabağ məsələsi ilə bağlı gedə biləcək müzakirələri indidən söyləmək mümkün deyil. Reallıq budur ki, Rusiya ilə Ermənistan o qədər yaxınlaşıb ki, bu problemin həllinin siyasi vasitələrlə həlli mümkünsüz görünür. Yalnız Türkiyə-Azərbaycan arasındakı hərbi ittifaq yaranan balansı tarazlaşdıra bilər".



**Politoloq D.Trampın prezident seçilməsinin Dağlıq Qarabağ məsələsində oynaya biləcəyi müsbət keyfiyyətlərə də toxundu:** "Ümumiyyətlə, respublikaçılar Azərbaycan və Türkiyəyə qarşı münasibətdə daha pozitiv olublar. Güman edirəm ki, Tramp bu pozitivliyi daha da artıra bilər. Onun Azərbaycanın bəzi siyasi dairələrlə əlaqələri dediyimiz sözlərə haqq qazandırır. Obama dövründə pisləşən Türkiyə ilə münasibətləri düzəltmək üçün Tramp önəmli açıqlamalar verir. Açığı, Rusiya ilə Amerikanın münasibətlərinin düzələcəyi ehtimalı bir qədər zəif görünür. ABŞ elə bir ölkədir ki, prezidentin yürütdüyü siyasət təkcə onunla bağlı deyil. Dövlət siyasəti bir sıra strukturlar tərəfindən yönləndirilir. Türkiyə ilə münasibətlər düzələ bilər. Çünki Türkiyənin Qərbdən uzaqlaşıb, Rusiyanın təsir məkanına çevrilən yerə yönəlməsi real görünmür. Buna imkan da verməzlər. Eyni zamanda Türkiyə rəhbərliyi buna yönəlik addımlar atsa belə, ciddi narazılıqlarla üzləşə bilər. Türkiyə anlamalıdır ki, Dağlıq Qarabağ, Yaxın Şərq və MDB məkanındakı problemlərin həlli yolu Rusiyanın zəiflədilməsindən, yerində otuzdurulmasından keçir. Bu məsələdə əksər analitiklərin fikirləri eynidir. Tramp da çoxlarının fikirləri ilə siyasət yürütməyə məcbur qalacaq. Türkiyə siyasətini bu reallıqlara uyğun qursa, həm özü udar, həm də Qarabağ probleminin həllinin obyektiv istiqamətə yönəlməsinə nail ola bilər".

❑ **Cavanşir ABBASLI**

# Rusiya Hələbi məhəllə-məhəllə Əsədə qaytarır



## Suriyanın şimalındakı yeni vəziyyət; Moskva Ankaranı kürd məsələsində razı salmağa nail olub



**Suriya ordusu Hələb şəhərində mühasirəni daha da daraldıb. Son həftələrdə aramsız hücumlar təşkil edən Suriya ordusu silahlıların nəzarətində olan Hələbin şərq rayonlarını bir-bir ələ keçirir. Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, artıq silahlılar Hələbin şərqində əllərində olan bölgənin 40 faizini, daha dəqiqi, 12 rayonu itiriblər.**

Artıq Hələbin bir neçə günə tamamilə hökumət qüvvələrinin nəzarətinə keçəcəyini müxaliflər də etiraf edirlər. Suriya müxalifətinin ölkə xaricində yerləşən şurasının nümayəndəsi Corc Səbra BBC-yə açıqlamasında deyib ki, Hələbin itirilməsi müharibənin sonu deyil. Bu açıqlamanın özü artıq müxaliflərin də Hələbin itirilməsi ilə barışdığını göstərir.

Hələbin silahlıların nəzarəti altında olan bölgəsində 300 min nəfərdən bir qədər az sakinin olması ehtimal edilir. Son həftələrdəki döyüşlər və aralıq atəşkəs dönəmində 10 minə yaxın insan bu bölgəni tərk edərək hökumətin və kürd silahlıların nəzarət etdiyi bölgəyə qaçıb. Hazırda Hələbin şərq ərazilərində Azad Suriya Ordusu və bir sıra islamçı silahlı birləşmələr, o cümlədən keçmiş "ən-Nusra" cəbhəsi (indiki Şamın Fəth Cəbhəsi) kimi qüvvələr möhkəmlənib. Şəhərin qərb hissəsinə isə hökumət qüvvələri nəzarət edir, bundan başqa, Hələbin kənarında, şimala doğru bölgədə kürdlərin YPG və ya Suriya Demokratik Qüvvələrinin postları var. Şəhərdən verilən məlumata əsasən, hazırda hökumət qüvvələri Hələbin məhəllələrini bir-bir ələ keçirir və mərhələli şəkildə ərazini nəzarətə alır. Bu isə o deməkdir ki. yaxın günlərdə şəhərin tamamilə təmizlənməsi mümkündür.

Qeyd edək ki, Hələb Suriyanın şimalında, Türkiyəyə doğru əsas strateji bölgədə yerləşən böyük şəhərdir. Hələbdə müharibə başlayana qədər 2,3 milyon əhali yaşayıb. Hələb Suriyanın ikinci böyük şəhəri olmaqla yanaşı, eyni zamanda Yaxın Şərqin ən böyük sənaye və tekstil mərkəzlərindən biri olub. Müharibəyə qədər Hələbdə 320-dən artıq zavod və fabrik fəaliyyət göstərib. Suriyada münaqişə başlayandan az sonra - 2012-ci ildə Hələbin böyük hissəsi müxaliflərin (bir neçə silahlı qrupun - K.R.) nəzarəti altına düşüb. Hələbdə vəziyyət 2015-ci ilin sonlarında - Rusiya Suriyada hərbi əməliyyatlara başladıqdan sonra dəyişib. Ümumiyyətlə, Hələb Suriyanın şimalına doğru strateji məntəqə hesab olunan, əsas magistral yolun üzərində yerləşir. Hələb özünün böyük bir şəhər olması ilə yanaşı, yerləşdiyi nöqtə də müharibənin taleyi, Suriyanın şimalında əsas güc sahibi müəyyən edən faktora çevrilib. Bu səbəbdən də ruslar məhz əməliyyata Hələbdən başladılar.

Çünki Hələbin ələ keçirilməsi Bəşər Əsədin Dəməşqdən sonra ölkənin ikinci böyük şəhərini nəzarət altına almış olacaq və bununla da ölkədə əsas güc mərkəzi iqtisad olaraq qəbul olunacaq. Üstəlik, Hələbi ələ keçirməklə Türkiyə yolunu nəzarət altında saxlaya biləcək və bununla da faktiki olaraq şimal bölgələrində əsas güc olacaq. Bu səbəbdən də Rusiyanın əməliyyatları Hələb ətrafında cəmləşdi.

Qeyd edək ki, Hələb haqqında yuxarıda qeyd olunan amillər müxaliflər üçün də keçərlidir. Bu səbəbdən də müxaliflər hələ də direniş göstərir, Hələbi vermək istəmirlər. Çünki Hələbin itirilməsi onlar üçün ağır itki olacaq, böyük ölçüdə psixoloji məğlubiyyət yaşayacaqlar.

Xatırladaq ki, bu il avqustun 24-də Türkiyədən quru qüvvələri aviasiyanın dəstəyi ilə Suriya ərazisinə daxil olub. "Fırat kalkanı" adlanan əməliyyatın əsas hədəfi Fərat çayının sol sahilinə keçən və Türkiyə sərhədinə doğru böyük əraziləri İŞİD-dən almaqda olan kürdlərin YPG və ya Suriya Demokratik Qüvvələri (SDQ) birləşmələrinə qarşı əməliyyat idi. Çünki kürdlərə amerikalılar və Avropa ölkələri hərbi dəstək verirdi, bu səbəbdən də onlar sürətlə İŞİD-in əlindəki bölgələri ələ keçirirdilər. Ancaq kürdlərin Türkiyə sərhədlərinə doğru yaxınlaşması Ankara üçün İŞİD qədər ciddi problem idi. Çünki YPG Türkiyədə separatçı kürd terror təşkilatları ilə ittifaq halındadır, PKK-nın müttəfiq quruluşudur. YPG-nin Türkiyə sərhədlərinə nəzarət etməsi və burda muxtariyyət yaratması Türkiyəyə qarşı faktiki olaraq bölücülük fəaliyyətinin alovlanması idi. Bu mənada Türkiyə üçün Bəşər Əsədin taleyindən çox, kürdlərin gələcək Suriyada hansı statusda olacaqları əsas məsələdir.

Bu səbəbdən də Türkiyə ordusunun sərhədi keçərək ilk dəfə Suriya ərazilərinə daxil olması nəzərləri Rusiyaya çevirdi. Çünki Suriya ərazində 2015-ci ilin noyabrından Rusiyanın S-400 hava hücumundan müdafiə sistemləri yerləşdirilib və faktiki olaraq Suriya hava məkanı hətta İsrail kimi yeni texnologiyaları olan dövləti aviasiyası üçün qapadılmışdı. Ancaq gözlənilmədən avqustun 24-dən başlayaraq Türkiyə aviasiyası Suriya ərazilərinə daxil olaraq kürdləri və İŞİD mövqelərini bombalamağa başladı. Aydın idi ki, Türkiyə ordusunun Suriyaya daxil olması ən azından Moskva ilə razılaşdırılmışdı.

İlk olaraq ərəb mətbuatı Ərdoğan və Putin arasında Suriya mövzusunda anlaşmanın olduğunu yazdı. İddia edilirdi ki, Hələbin Suriya hökumətinin nəzarətinə keçməsi qarşılığında, ruslar Türkiyənin kürdlərə qarşı əməliyyatına razılıq veriblər. Ancaq bir qədər sonra Türkiyənin haber7 saytı rusların həqiqətən də belə bir təklifinin olduğunu, ancaq Ankaranın qəbul etmədiyini yazdı.

Ancaq detallarının hər nə olmasından asılı olmayaraq, Suriya mövzusunda Rusiya və Türkiyə arasında ortaq maraqlara əsaslanan bir razılaşmanın olması açıq-aydın hiss olunur. Çünki əvvəla, Rusiya-Türkiyə münaqişəsinin kökündə Suriya problemi dayanırdı və iki ölkə arasında təyyarə olayından sonra barışıq şərti Suriya münaqişəsi idi, ikincisi sadaladığımız amillər, yəni Türkiyənin Suriyaya daxil olması və rusların, eləcə də Suriyanın *(BMT-yə məktubla müraciət istisna olmaqla - K.R.)* etirazının olmaması ortada hansısa anlaşmanın olduğunu göstərir. Digər tərəfdən, ruslar indi kürd məsələsinə tamamilə kənardan baxır, necə deyərlər, qarışmırlar.

Çox güman ki, bu anlaşmada Hələb qarşılığında Suriyanın şimal bölgələrində Türkiyə ordusu himayəsində ASO-nun nəzarət etdiyi yeni bölgənin yaradılması, eləcə də danışıqlarda hansısa siyasi razılaşma bəndləri mövcuddur. Hər halda, bütün bunları detallı şəkildə indi söyləmək mümkün deyil.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 266 (6587) 30 noyabr 2016

# Azərbaycanlı gənclə rusiyalı milyarder qızının müəmmalı avtoqəzası

## Luqano gölünün dərinliklərinə qərq olan eşqin sonu, yoxsa yeni Diana-Dodi əl-Fayed hekayəsinin başlanğıcı?

**"Diana" adı daşıyıcılarından çalışın uzaqda gəzəsiniz. "Niyə" sualı versəniz, cavabınızı çox da yubatmaram. Səs ahəngimi, nəfəs ritmimi pozmadan adi məntiqin köməyi ilə sualınızı belə cavablandıraram: "Şahzadə Diana, sevgilisi Dodi əl-Fayedlə Parisdə avtomobil qəzasına düşdüyü vaxtdan bəri bu ad öz sahiblərinə uğur gətirmir, bilәsiniz. Ölüm gətirir, qəza gətirir, vəssalam".**

Etiraz etsəniz, desəniz, bəs bu kor təsadüfdür, yenə də özümü sındırmadan sakitcə öz həmişəki məntiqimə qayıdacam - "Əvvəla, kor təsadüflər, çoxdan bəri həyatımızın əsas qanununa çevrilib. İkincisi..."

***

İkincisi, bu Diana əfsanəsi, 19 ildən sonra yenidən bittə-bittə təkrarlanıb. Ancaq bu dəfə Parisdə deyil, İsveçrə dağları ətəyində. 25 noyabr səhər saat 4 radələrində bu füsünkar ölkənin Tiçino kontonu



dəmir çəpərləri sındıraraq yüksək hündürlükdən şarappıltıynan Luqana gölünə yuvarlanıb. Günah iddialara inansaq, sükan arxasındakı Azər Yaqubovda imiş.

***

Ancaq nəzərə alın - BMV X6 avtomobili, "ağıllı avtomobil" kimi tanınır maşın həvəskarları arasında. Təhlükəni özü qabaqcadan hiss edir o. Bilgisayar vasitəsilə sahibini qarşıdakı təhlükəli maneədən qabaqca-





ərazisində, Kastaqnola kəndinə çatmamış "Romeo və Djulyetta", "Leyli və Məcnun" əfsanəsinə layiq bir facіə yaşanıb. "BMV" markalı bahalı lüks avtomobil, yol qaydalarını kobudcasına pozaraq gəlib düşüb Luqano gölünün əlçatmaz dərinliyinə. Şahzadə Diana qəzası ilə həmin hadisə arasındakı ikinci oxşarlıq, bax, burda üzə çıxır. Hər iki qəza "BMV" markalı lüks avtomobildə törədilib - bunu da yadda saxlayın. Üçüncü oxşar fakt, salondakıların elitar təbəqəyə məxsus olub, aralarında sevgi macərası yaşamaları faktıdır. Dünyanın əksər mass-media mərkəzləri nədənsə bu hadisəyə biganə qalmayıblar. Görünür, "Sarışın Diana, qara BMV, cilovsuz sevgi, başgicəlləndirici eşq" ardıcıllığı hələ də qulaqlarda qalıb cingildəyir. Bunun müasir təkrarı da, görünür, şüuraltımızda hansısa naməlum nöqtələri qıcıqlandırır deyə, dünya oxucu kütləsi acgözcəsinə bu mövzu üzərinə atılıb.

Əvvəlcə mətbuatda həlak olanlar barədə ziddiyyətli məlumatlar yayılıb. Luqana gölü dərinliyindən suyu süzülə-süzülə çıxarılan qadın cəsədinin kimə məxsusluğu əvvəldən kimsədə şübhə yaratmayıb. Burda bütün məlumatlar eynidir - bəs gölün dərinliyindən çıxarılan sarışın su pərisi rus oliqarxı Platon Lebedevin nəvəsi Dianadır, vəssalam. İkinci cəsədin kimliyi isə mass-media dünyasındakı dedi-qoduları artırıb. Mübahisə sosial şəbəkələrə də sıçrayaraq milyonları öz ətrafındakı qızğın dartışmalara qatıb.

Sonrakı cari xəbərlər, "Şərikli çörək" filmindəki məşhur "Şəhərin adı Cenevə, xanımın adı Cenevrevə. Baden-Badenin mavi gecələri. Fransız xalqı kef eləyir" misralarını yaddaşımızda oyadıb bütün facebooku qatır bir-birinə. Əvvəlcə sual yayılır ki, sükan arxasındakı yaraşıqlı oğlan bilirsinizmi kimdi? Damağındakı Havana siqarını sümürə-sümürə ölümə atılan bu dəcəl oğlanda görün bir kimi tanıyırlar? İndi sizə deyərəm kimi.

Rusiya Prezident Administrasiyası Hüquq şöbəsinin rəhbəri həmyerlimiz Sübhü Şıxlinskinin adı mətbuatda ilk dəfə, bax, bu facіə ilə əlaqədar çəkilib. Kimsə ortaya şayiə buraxıb ki, bəs mərhum oğlan guya onun qardaşı, yaxud bacısı oğludur.

Sonrakı məlumatlar başqa informasiya mənbələrində yoxlanılıb. Tutuşdurulub. Dəqiqləşdirilib. Bəlli olub ki, bəs bu "qara yumor" nümunəsidir. Kimsə, Şıxlinskilərlə öz haqq-hesabını sosial şəbəkələrdə bu cür namərdcəsinə çürütmək istəyib.

Axır, şükür, haqq-ədalət, nəhayət, qalib gəlir. Doğru-dürüst, yoxlanılmış məlumatlar mətbuata ötürülür. Nəhayət, İlahə Şıxlinskaya, "SPACE" radiosunun tanınmış aparıcısı, Sübhü Şıxlinskinin doğmaca bacısı, mətbuata təkzib məktubu göndərir ki, jurnalist xəbəri öz mənbəyindən alarkən gərək diqqətli olsun.

Bundan sonra Luqano gölü dərinliyindən çıxarılmış ikinci cəsədin kimə məxsusluğu axır kimsədə şübhə doğurmur. Sübhü Şıxlinskinin adı keçir arxa plana. Ortaya Azər Yaqubovun adı atılır. Azərbaycan KİV-nin məlumatına görə, Azər Yaqubov "Azərbaycan Hava Yolları" QSC-nin Moskvadakı federal nümayəndəliyinin sabiq rəhbəri Mahir Yaqubovun doğmaca oğluymuş.

Dövrü mətbuatda Azər barədə görün bir nə deyilir: **"Azər son 9 ildə İsveçrədə yaşayıb. Oranın TASİS özəl elit məktəbində təhsil alıb və sonra ondan daha az prestijli olmayan Franklin kollecində oxuyub. Göründüyü kimi, gəncə ailəsi böyük gələcək hazırlayırmış. Azər Yaqubovun oxuduğu TASİS məktəbi İsveçrənin fransız hissəsi Luqanoda yerləşir. Məktəbin tələbə yataqxanası 17 əsrə aid Villa De Nobili sarayında yerləşir. Məktəbdə italyan və ingilis dilləri bölmələri var. Burada 4 yaşından 18 yaşına kimi 50 müxtəlif millətdən olan 650 uşaq təhsil alır. Valideynlər uşaqlarının təhsilinə 2016-2017-ci təhsil ili üçün 75 min İsveçrə frankı xərcləyir ki, bu da təxminən ABŞ dolları ilə ekvivalentdir. Yaqubovun instagramdakı səhifəsindəki fotolar onu göstərir ki, Diana Lebedeva ilə yaxın münasibətdə olmayıblar. Birlikdə şəkilləri yoxdur. Ola bilsin onlar sadəcə yaxşı dost imişlər".**

***

Qəza Luqanaya gedən serpantin, yəni dolanbac yolun ən təhlükəli nöqtəsində törədilib. Lüks BMW X6, yol kənarındakı

dan xəbərdar edir. BMW X6 məhz bu xüsusiyyətlərinə görə məşhur kinorejissor Mark Polanskinin "Adsız müəllif" (The Ghost Writer) filminin bir növ baş qəhrəmanıdır. O, öz sürücüsünü - yazıçı Yuen Makqreqoru, səfər marşrutundakı mümkün maneələr barədə öncədən vaxtaşırı, dönə-dönə xəbərdar etməyi bir an belə unutmur.

İndi gəlin törədilmiş qəzanın pərdəarxasına fikir verək.

"Ağıllı avtomobil"lərin bilgisayar yaddaşına dünyadakı bütün nəqliyyat yollarının, o cümlədən İsveçrə yollarının xəritəsi yüklənib. Mümkün maneəyə az qala, avtomobilin siqnal sistemi öz-özünə işə düşüb əyləci asfalta mıxlayır. BMW X6-da eləcə digər təhlükəsizlik sistemləri də mövcuddur, bilәsiz. Bütün bunlar şəxsən məndə qəza barədə müxtəlif şəkk-şübhə doğurur, vallah.

Qısası, torbada qara pişik var. Çinlilər deyirlər qara pişiyi qara otaqda tapmaq müşkülünə qarışmasan, həqiqəti əldə edə bilməyəcəksən.

Məncə, Luqano gölündən çıxarılmış ağıllı BMW X6-nın bilgisayar yaddaşını öyrənmədən qəza barədə danışmaq qeyri-peşəkarların işidir.

**Kənara çəkilin.**

**Çörəyi verin çörəkçinin ixtiyarına.**

**Görək bu dəfə onlar növbəti Şahzadə Diana ilə növbəti Dodi əl-Fayed haqda bizə hansı konspiroloji nağılları danışacaqlar.**

❑ **Həmid HERİSÇİ**



# Məmur-oliqarxlar həbsxanaya gedir- "qara dustaq" kef çəkəcək

## Məmməd Zeynalov: "Məmur-arestantın hesabına ətrafdakılar da yaxşı yaşayırlar"



**Azərbaycanda yolu həbsxanadan keçən məşhurların, məmurların sayı az olmayıb. Bu gün də məhkəmələrdə çox ciddi ittihamlarla üz-üzə qalan məmurlar var və onlar üçün yolun sonu artıq görünür - uzun müddətli həbsə göndəriləcəklər. Kimsənin həbsə göndərilməsi, azadlıqdan məhrum olunması normalda arzuolunan deyil. Bu məsələdə azadlıqda olanlarla qara dustaqların baxışı üst-üstə düşmür. Bunun da özəl səbəbi var.**

Beynəlxalq Bankın keçmiş sədri Cahangir Hacıyev, Milli Təhlükəsizlik Nazirliyinin generalları, "Rabitə işi" üzrə həbs olunan vəzifə daşıyıcıları və ətrafları yaxın aylar ərzində Azərbaycan həbsxanalarına, cəzaçəkmə müəssisələrinə göndəriləcəklər. Həbs olunanlar dollar zənginləridir. İttihamlara inansaq, elə həbs edilənlərdən bəzilərinin ifadələrinə istinad etsək, üst-üstə milyard dollara yaxın vəsait mənimsəmiş, talamış qrupların üzvləri olmasını söyləyə bilərik.

Məsələn, sabiq iqtisadi inkişaf naziri, 2005-ci ildə həbs olunaraq 10 il müddətinə azadlıqdan məhrum edilən Fərhad Əliyev saxlandığı cəzaçəkmə müəssisəsində məscid tikdirmişdi. Müəssisədəki dustaqların sosial və sağlıq durumları ilə bağlı, gündəlik normal qidalanmaları ilə bağlı problemləri həll etmişdi.

Bu baxımdan, zənginlərin həbsə göndərilməsi xəbərləri sıravi dustaqların maraqlarına daha çox uyğun olur.

Vaxtilə həbsxana həyatı yaşamış **ADP sədri Sərdar Cəlaloğlu** deyir ki, varlı məmurun həbsi imkansız dustaqların həyatında yaxşılığa doğru dönüş yaradır.

"Məsələnin bu tərəfi də var ki, həbs olunan məmur xəsis olanda pul xərcləmir. Humanist insan deyilsə, onun imkansız dustağa əl tutması da mümkün deyil. Məsələn, biz özümüz həbsdə olanda kameraları öz vəsaitimizlə təmir etdirmişdik. Kanalizasiya problemini, su, duş məsələlərini həll etdik. Vəkil Qurban Məmmədov Xələcdə həbsdə olanda orada məscid tikdirib, tibb məntəqəsini təmir elətdirib. Qobustan Qapalı Həbsxanasında da müəyyən tikinti işlərini gördürüb. Belə hallar olub, var və olacaq" -deyə Sərdar Cəlaloğlu bildirib.

**Penitensiar Xidmətin sabiq rəisi Məmməd Zeynalov deyir ki, varlı məmurların həbsi imkansız dustaqlar üçün toy-bayrama çevrilir:** "Varlı, vaxtilə vəzifədə çalışmış şəxs həbsxanaya düşdüsə, başlayır özü üçün şərait yaratmağa. Orada sosial problemləri həll etməyə, özü ilə bərabər digər dustaqların da vəziyyətini yaxşılaşdırmağa. Amma beləleri də var ki, xəsisliklərindən orada da qalmırlar. Ancaq özlərini düşünürlər. Ümumilikdə onlara münasibət pis olur, özlərini biabır edirlər".

**M.Zeynalovun sözlərinə görə, həbsxana şərtləri belə varlı-karlı arestantları əliaçıq olmağa məcbur edir:** "Ora düşənlər anlayırlar ki, yaxın illərdə həmin divarlar onlara doğma olacaq. Ona görə də illərlə yığdıqlarının bir qismini xərcləyib özlərinə şərait qururlar. Tutaq ki, bir kameraya varlı-karlı bir məmur düşübsə, orada olan imkansız dustaqlar sevinirlər. 8-10 nəfərlik kamera həmin varlı məmur-arestantın hesabına kef edir, ətrafdakılar da yaxşı yaşayırlar. Belə deyək ki, qara dustaq da yaxşı yaşayır, dolanır. Sevinirlər ki, çıxarlarımızı verən gəldi".

❑ **E.HÜSEYNOV**

# Evlərdə gəzən ölüm - dəm qazı...

## Ekspert: "1 kub metr təbii qazın yanması üçün 9.5 kub metr hava lazımdır"

**Qaz cihazlarından düzgün istifadə edilməməsi səbəbindən Azərbaycanda demək olar ki, hər gün faciə baş verir. Son bir həftənin statistikasına diqqət etsək günə 2-3 dəm qazından zəhərlənmə, ölüm hadisəsinin düşdüyünü görərik. Yalnız noyabrın 27-də dəm qazı 4 nəfərin həyatına son qoyub, 3 nəfər isə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.**

Qazdan zəhərlənmələr daha çox hamam və ya yataq otaqlarında baş verir.

Maraqlıdır, zəhərlənmə halının baş verməməsi üçün hamamdakı su qızdırıcıları və qaz sobaları necə quraşdırılmalıdır?

**Azad İstehlakçılar Birliyinin (AİB) eksperti Nüsrət Qasımlı bildirdi ki, qızdırıcı cihazların tüstü bacaları yoxlanılmalıdır:** "30 ildən çoxdur ki, Bakıda ümumi yaşayış binalarının əksərində tüstü bacaları təmizlənmir. Onu təmizləyəcək elə bir qurum da yoxdur. Qazdan təhlükəsiz istifadə qaydalarında yazılıb ki, hər rübdə bir dəfə suqızdırıcıları, payızda isə digər qızdırıcı cihazların tüstü bacaları yoxlanmalıdır. Qızdırıcının baş hissəsi ilə birinci dirsəyə qədər 50 sm məsafə olmalıdır. Hamam otaqlarının tikintisi inşaat normalarına uyğun olmalıdır. Hamam otağının qapısı bayıra açılmalı, təbii işıq mənbəyi olmalı, tüstü baca ötürücüsü və havalandırma sistemi olmalıdır. Bu şərtlər yerinə yetirilməsə orada qaz işlətmək olmaz. Təbii qaz metan qazından ibarətdir. Onun özü zəhərli olmasa da, yanan məhsulları və yanma zamanı əmələ gələn dəm qazı zəhərlidir. Ona görə də hamam otağının qapısının ağzında 2,5 diametrliyində deşik olmalıdır ki, oradan hava daxil olsun və yanma prosesinə kömək etsin. Yəni 1 kub metr təbii qazın yanması üçün 9.5 kub metr hava lazımdır. Hava olmayanda karbon 4 oksid əvəzinə karbon 2 oksid, karbon mono-oksid hasil olunur. O da vanna otağına 0,1 faiz dolarsa, insan orqanizminin müqavimətindən asılı olaraq 7-30 dəqiqə ərzində insan dəm qazından zəhərlənib ölə bilər. Qaz sobalarının, hamamdakı su qızdırıcılarının özbaşına təmiri, yerinin dəyişdirilməsi qəti surətdə qadağandır. Nazirlər Kabinetinin qərarına əsasən bu iş "Azəriqaz"dan alınıb FHN-ə verilib. 7 aydır ki, buna nəzarət FNH-ə verilib".

**N.Qasımov bu qədər maarifləndirmə işlərinin aparılmasına baxmayaraq, əhalinin yenə də öz həyatına qarşı laqeydlik etdiyini dedi:** "Qazdan təhlükəsiz istifadəni pozan insan öz həyatını təhlükəyə atmaqla bərabər, qonşularının da həyatını təhlükədə qoyur. Əgər mənzilə 4,5 faiz qaz dolarsa adi bir qığılcımla partlayış ola bilər. Partlayışın zərbə qüvvəsinin gücü 1 kvadrat metrə 400 tondan çoxdur. Ona görə də qaza qarşı diqqətli olmalıyıq. Əhaliyə qazdan təhlükəsiz istifadə qaydalarına riayət etmələrini məsləhət görürəm. Qaz cihazlarını yanılı qoyub yatmasınlar, özbaşalarına təmir işləri aparmasınlar. Bunun üçün qaynar xətlər var. Onlara zəng edib mütəxəssis çağırsınlar. Qaz özbaşınalığı bağışlamır".

**İqtisadiyyat yazarı Dünya Sakit isə deyir ki, dəm qazı ilə bağlı baş verən faciələrə 60 faiz insanlar özü, 40 faiz isə qazın tərkibindəki maddələrin çox olması səbəb olur:** "Su qızdırıcılarının üzərindəki sertifikata diqqət etmək lazımdır. Biz də bu yaxınlarda qazla işləyən su qızdırıcısı aldıq. Onun üzərində həm sertifikatı, həm də təhlükəsizlik qaydaları deyilən bir sənəd vardı. Təhlükəsizlik qaydalarında dəm qazının harada, necə quraşdırılması barədə məlumat yazılmışdı. Dəm qazının adətən çölə çıxışı olmayanda qayıdır içəri və insanın ölümünə səbəb olur. Dəm qazından bu qədər ölüm hallarının baş verməsinin birinci səbəbi insanların təhlükəsizlik qaydalarına əməl etməməsidir. Adi elementar qaydalara əməl olunmur, su qızdırıcılarının bayıra çıxışı, yəni dəm qazını çəkib aparan sistemi düzgün quraşdırılmır. İlk olaraq qazla işləyən su isidiciləri, qaz sobalarını alarkən diqqətli olmaq, sertifikatlaşdırılmış olanları almaq lazımdır, bu elə də baha deyil. Elə su qızdırıcıları var ki, qiyməti sertifikatlaşdırılmışlardan da bahadır. Digər tərəfdən, vanna otaqlarında təhlükəsizlik qaydalarına əməl etmək lazımdır. Belə ki, hər bir vanna otağının qapısının altında boşluq olmalıdır ki, hətta sızma olsa belə dəm qazı içəridə yığılıb qalmasın. Hamam qapılarını sifariş edərkən diqqətli olsunlar. Çünki indi qapılarda boşluq olmur. Amma qapının aşağı hissəsində 3-4 dənə deşik açılır ki, dolan dəm qaz boğulmaya səbəb olmasın. Ən azından qazla su qızdıran insanlar hamama girəndə hətta bütün təhlükəsizlik qaydalarına əməl etsələr belə, balaca nəfəslik və ya qapıda olan deşikləri açıq qoysunlar. Qazın tərkibinə vurulan qarışıqlar yayda az, qışda çox olur. Buna görə də qazdan zəhərlənmə halları artır".

**D.Sakit bina evlərində qazla bağlı problemlərin daha çox olduğunu dedi:** "Bina evlərinin tüstü bacaları ümumi olur. O tüstü bacalarının baxımı məsələsi var. Sakinlər qaz qızdırıcılarından istifadə edirlərsə, tüstü bacalarının təmizlənməsinin qeydinə qalmalıdırlar. Bunu həyata keçirən qurumlar var. Bunu ilk növbədə mənzil istismar sahələri həyata keçirməlidir və sakinlər bunu tələb etməli, ən azından öz həyatları üçün nəzarət etməlidirlər. Ev qızdırmaq üçün İran sobaları var. İran sobalarının da son zamanlar sertifikatlıları bazara daxil olub. Türkiyənin də çox gözəl qaz konvektorları var. Düzdür, onların qiyməti bahadır və hər kəsin almağa gücü çatmır. Amma özünüzün, övladlarınızın həyatı üçün bunu almaq lazımdır. Qaz sobalarının da sertifikatlı avtomat deyilən sistemləri var. Hansı ki, o sistemlər dəm qazı içəri buraxanda avtomatik sobanı söndürür. İnsanlar lazım olanda o sobalardan alıb quraşdırmalıdılar. Son zamanlar dəm qazından baş verən faciələrin artmasının bir səbəbi var, o da qazın keyfiyyətidir. Əgər təhlükəsizlik qaydaları 60-70 faiz rol oynayırsa, 30-40 faiz də qazın keyfiyyəti rol oynayır. Qazın yanması, onun tərkibinə vurulan maddələr var. Xatırlayırsınızsa, 2 il əvvəl Lökbatanda qazdan kütləvi şəkildə zəhərlənmə olmuşdu. Səbəb qazın tərkibinə əlavə maddələrin çox vurulması idi. Bununla bağlı da dövlət qurumları müvafiq tədbirlər görməlidirlər. Xüsusən də qış aylarında təzyiqi artırmaq üçün qaza vurulan maddələrin miqdarına nəzarət olunmalıdır".

❑ Günel MANAFLI



**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Son aylar müxalifətin fəaliyyətində demək olar ki, tam durğunluq müşahidə olunur. Ölkədə baş verən ictimai-siyasi hadisələrə müxalifət liderləri ən yaxşı halda sosial şəbəkələrdə statuslar yazmaq, müxtəlif bəyanatlar verməklə kifayətlənirlər. Bu statusların da bir qismində müxalifət liderlər tərəfindən xalq qınanılır. Bildirilir ki, mitinqlərə xalq gəlmir. Elə buna görə də hökumət çəkinmədən qiymət artımına gedir...**

# Müxalifət xalqı meydanlara çıxmamaqda suçlayır

## Tural Abbaslı: "Yalnız siyasi yetkin olmayan siyasətçilər bu məsələdə xalqı günahlandıra bilər"


Tural Abbaslı

Məlum olduğu kimi, noyabrın 28-də Tarif Şurasının qərarı ilə ölkədə elektrik və təbii qazın qiymətində artım oldu. Bu artıma da müxalifətin bəzi nümayəndələri adətləri üzrə sosial şəbəkə üzərindən reaksiya verdilər.

**AXCP sədri Əli Kərimli** qiymət artımının ardınca sosial şəbəkədəki şəxsi səhifəsində yazaraq bildirdi ki, "əgər siz təyin olunan "Monarxiyaya yox! Talana son!" mitinqlərinə gəlsəydiniz, indi hökumət bu cür addım atmağa cəsarət etməzdi".

Təşkil edilən mitinqlərə xalqın gəlməməsinin, xalqın müxalifətə etimadının olmamasının günahı hansı tərəfdədir? Xalqda, yoxsa müxalifətdə?

**Mövzu ilə bağlı AG Partiyanın lideri Tural Abbaslı** bildirib ki, hər bir qiymət artımı istənilən normal siyasi mühitə malik olan dövlətlərdə müxalifət üçün bir şansdır:

"Bu, müxalifətin həm əhalinin narazı kütləsini təşkilatlandıraraq hakimiyyətin əleyhinə yönəltməsi, həm də öz mövqeyini xalq arasında möhkəmləndirməsi üçün məqamdır. Çünki mövcud hakimiyyətə etiraz edən xalq istənilən halda müxalifətin yanında olmalıdır. Lakin Azərbaycanda qiymət artımlarından sonra müxalifət xalqın ciddi etirazını təşkil edə bilmir. Bunu edə bilmədiyi halda isə müxtəlif bəhanələr axtarır. Elektrikin və qazın qiymətindən əvvəl daha ciddi artımlar baş verdiyi zaman belə xalq reaksiya vermədi. Düşünürəm ki, yalnız yetkin olmayan siyasətçilər bu məsələdə xalqı günahlandıra bilər. Çünki birincisi, siyasətçi özünü xalqa uyğunlaşdırmalıdır. Xalq özünü hansısa liderə və ya siyasətçiyə uyğunlaşdırmalı deyil. Əgər bizim dırnaqarası böyük fikirli siyasi liderlərimizin düşündükləri kimi fərz etsək ki, günah xalqdadır, xalq bunlara görə meydanlara çıxıb döyülmür, şüar qışqırmır. O zaman belə anlamaq lazımdır ki, xalqın psixologiyası budur və sən öz xalqına uyğun olan mübarizə strategiya seçməlisən. Dünyanın müxtəlif dövlətlərində xalqların xarakterləri də fərqlidir. Yəni məsələn, bir yerdə xalq passivdir, bir yerdə etiraza meyllidir. Ancaq həmin dövlətlərdə də müxalifət var və inkişaf edib, hakimiyyətə gəlir".

**T. Abbaslı bildirib ki, Azərbaycanda xalqın müxalifətin ətrafında toplanmamasının günahı müxalifətin özündədir:** "İllərdir ki, eyni simalar, təşkilatlar oxşar şüarlarla xalqın qarşısına çıxırlar. Buna baxmayaraq, neçə ildir ki, xalq onları bacardıqları qədər meydanlarda tək qoymur. Hər dəfə də müxtəlif satqınlıqların, qeyri-peşəkarlığın şahidi olub, xəyal qırıqlığına uğrayırlar. Belə bir misal var ki, yalançı çobanın evi yandı, kimsə ona inanmadı. Bax indi həmin vəziyyətdir. Xalq artıq bu məsələlərə reaksiya vermir. Odur ki, əgər Azərbaycanda qiymət artımından sonra kütləvi etirazlar yoxdursa, hakimiyyət də bu qədər rahat formada istədiyini edirsə, demək, burada günah siyasi təşkilat, partiyalardadır. Birincisi, onlar xalqın inamını itiriblər, ikincisi, elektoratı tanımırlar və özlərini xalqa uyğunlaşdırmaq əvəzinə, xalqı özlərinə uyğunlaşdırmağa cəhd edirlər. Bu isə heç bir zaman mümkün olmayan hadisədir. Necə ki, Azərbaycan hakimiyyətində dəyişikliklər baş verməlidir, eləcə də artıq etimadını itirmiş müxalifətdə də yeniliklər olmalıdır. Artıq "siz gəlin, biz sizi qələbəyə aparacağıq" kimi şüarlarla insanları küçələrə çıxarmaq olmaz. Quru pafosdan heç nə əldə etmək mümkün olmayacaq. Şəxsi nümunələr göstərmək lazımdır. Xalq meydanlara çıxır, öz liderlərini ətraflarında görmür. Ümumiyyətlə, xalq bu müxalifətdə perspektiv görmür, inanmır. Yalnız xalqın buna inandığı gün dəyişikliklər olacaq. Bir daha qeyd edirəm ki, yalnız siyasi yetkin olmayan siyasətçilər bu məsələdə xalqı günahlandıra bilər ki, zamanında dəstək versəydiniz biz filan yerlərə çatardıq. Xalqlar günahkar olmur. Necə ki, pis şagird olmur, pis müəllim olur, bu məsələdə də o cürdür".

❑ Əli RAİS




# Azərbaycanda fəaliyyət göstərən agentlik "qara siyahı"da

## Avropa Parlamentinin Rusiya KİV-lərinə qarşı qərarının pərdəarxası

**Avropa Parlamenti Rusiya KİV-lərinin Qərbə qarşı apardığı informasiya müharibəsinə qarşı tədbirlər görülməsi haqqında qətnamə qəbul edib. Avropa parlamentariləri polşalı deputat Anna Fotıqanın irəli sürdüyü bu sənədi müzakirə edib və Kremlin təbliğatının qarşısının alınması üçün tədbirlər görülməsini məqbul sayıblar. Sənəddə Rusiyanın "Sputnik"(Azərbaycanda da fəaliyyət göstərir-S.T.) və "RİA Novosti" agentlikləri, habelə "Russia Today" telekanalı var. Avropa Parlamenti sənədi müzakirəyə çıxarıb və bu haqda qətnamə 304 lehinə, 179 əleyhinə səslə qəbul olunub. Xatırladırıq ki, "Russia Today" telekanalı dünyanın aparıcı dillərində yayımlanır və qısa bir müddət ərzində reytinq cədvəlində dünyanın ən çox izlənən kanallarından birinə çevrilib.**

Bu fakt ciddi presedent sayılır. Ən azı Rusiya KİV-lərinə qarşı soyuq savaşın elementlərindən biridir. Bunun davamı ola bilərmi? Və hər şeydən önəmlisi bu sayaq qətnamələr Rusiya KİV-lərinə münasibətdə hansı nəticəni verəcək?

**"Turan" agentliyinin direktoru Mehman Əliyev bildirdi ki, bu, sözügedən istiqamətdə ilk belə fakt deyil. Müsahibimizin sözlərinə görə, bir ildən artıqdır ki, Rusiya təbliğatı təhlükə kimi vurğulanıb. Rusiyanın zərərli təbliğatına qarşı alternativ KİV-lərin, informasiya kanallarının yaradıldığını deyən M.Əliyev buna nümunə olaraq AzadlıqRadiosu daxilindəki rus dilli "Nastoyaşoye Vremya" verilişini misal çəkdi. Bundan başqa, o, BBC-nin də öz veriliş və təsirlərini artırmağa başladığını xatırladı:** "Almaniyada da bununla bağlı proses gedir. Avropa Parlamenti bunu vurğulayır və diqqəti artırmağı istəyir. Mən Qərb mütəxəssisləri ilə görüşümdə deyirəm ki, yanlış fikirləşirsiz və səhv edirsiz. Bu tendensiya yalnız Rusiyada deyil, MDB-də, dövlət nəzarətində olan KİV-lərdə də özünü göstərir. Həmin KİV-lər Rusiya təbliğatının bir qolu sayılır. Onlar hadisələrə eyni pəncərədən baxırlar. Bizim ölkədə də Rusiya KİV-lərinin baxışlarından çox istifadə edilir. Belə ki, rus dilində olan materialların tərcümə edilməsi, yayılması bunun səbəbidir. Məsələlərə daha geniş şəkildə baxmaq lazımdır".

**Müsahibimiz onu da xatırlatdı ki, bu sayaq tədbirlərin daha sərti bundan öncə həyata keçirilib. Belə ki, Böyük Britaniyada Rusiyanın RTR kanalının fəaliyyəti dayandırılıb, əmlakını həbs ediblər. M.Əliyevin sözlərinə görə, antirus təbliğatı ilə bağlı proseslər davam edəcək:** "AzadlıqRadiosunun sovet dövründə apardığı antisovet kampaniyasına bənzər kampaniya olacaq. Onlar bunu edir və sovet təbliğatını bu formada dağıdırlar".

❑ Sevinc TELMANQIZI

# Bahalaşma onları da danışdırdı



## Əli Mirəliyev: "Qaz pulunu ancaq çatdırırdım, işığın pulunu verə bilmirdim"



## Tahir İmanov: "Dövlətlə dövlətçilik edə bilmərik"



## Tarix Əliyev: "Əgər görsələr ki, insanlar narazılıq edir, bəlkə də qiymətlər aşağı düşər"

**Tarif Şurasının təbii qaz və elektrik enerjisinin qiyməti ilə bağlı qərarı ölkə gündəmini bir anda zəbt edib. Ekspertlər bahalaşma ilə bağlı qərarı şərh edərək bildiriblər ki, istehlakçılar əvvəlki kimi təbii qazın hər 1 kubuna görə 10 qəpik deyil, 2 dəfə çox - 20 qəpik ödəyəcəklər. Bu isə o deməkdir ki, əgər hər hansı bir istehlakçı istifadə etdiyi qaza görə hər ay orta hesabla 20 manat, ildə 240 manat xərcləyirdisə, yanvarın 1-dən sonra o ayda 7 manat 50 qəpik, ildə isə 90 manat çox, bütövlükdə isə 1 il üçün 330 manat ödəyəcək.**

İşığın qiymətinə gəlincə, aylıq elektrik enerjisi istehlakı 250 kilovat-saatdan çox olan istehlakçılar əlavə hər 1 kilovat-saata görə əvvəlki kimi 7 qəpik deyil, 1,6 dəfə çox - 11 qəpik ödəyəcəklər. Bu isə o deməkdir ki, əgər hər hansı bir isehlakçı istifadə etdiyi işığa görə hər ay orta hesabla ayda 21 manat, ildə 252 manat xərcləyirdisə, dekabrın 1-dən sonra ayda 26 manat 50 qəpik, ildə 318 manat ödəyəcək və sairə.

Bəs görəsən, müxtəlif peşəyə və təbəqəyə malik insanlar təbii qaz və elektrik enerjisi üçün ayda nə qədər pul xərcləyirdi?

Musavat.com mövzu ilə bağlı kiçik sorğu keçirib.

**Bəstəkar-aparıcı Murad Arif bahalaşma ilə bağlı təəssüf etdiyini bildirdi:**

"Bir müddət bundan əvvəl qaz üçün olan karta 100 manat ödəmişdim və hələ də onu işlədirəm. Dəqiq ayda neçə kub qaz işlətdiyimi bilmirəm. Yəqin ki, kartdakı məbləğ təxminən 5 ay gedər. Bahalaşmaya görə təəssüf edirəm... "

**Müğənni Əli Mirəliyev isə kommunal xərclər üçün ayda 50 manat xərclədiyini bildirdi:** "Mən 170 manat pensiya alıram. Qaz pulunu ancaq çatdırırdım, işığın pulunu düzəldib verə bilmirdim. Suyu pulnan alıram, dərmanlarımı ala bilmirəm. Ayda təxminən 50 manat kommunal xərclərə ödəyirəm. Buna görə bazardan ət də ala bilmirəm, ətin qiyməti indi 12 manat olub. Bu bahalaşma camaatımıza zərbədir. Müğənnilər artıq maşınlarını satıb taksi ilə gedib-gəlirlər.

Onsuz da köhnə tariflə borclarımızı ödəyə bilmirik, təzə tariflə necə verəcəyik? İnsanlar var ki, işləmirlər, maaşları yoxdur. Bəs onlar necə ödəsin?"

**Əməkdar artisti Tahir İmanov ayda nə qədər kommunal xərcləri olduğunu deməsə də Tarif Şurasının məlum qərarını dəstəklədiyini bildirdi:** "Mən Azərbaycan vətəndaşı kimi bütün fərmanlara, qərarlara tabeyəm və bütün ödənişləri vaxtlı-vaxtında ödəyirəm. Mən hər zaman qərarları dəstəkləyəcəm, çünki dövlət bilir nə etmək lazımdır. Dövlətlə dövlətçilik edə bilmərik, həmişə demişəm".

**Prodüser Tarix Əliyev:** "Bizim binada qaz yoxdur, amma işığa təxminən ayda 30-40 manat ödəyirdim. Evdə az olduğumdan işıqdan çox da istifadə etmirəm. Amma ötən ay 72 manat gəlmişdi, bu da mənim günahım idi, 20 gün kondisioner yanılı vəziyyətdə qalmışdı. Məncə, yeni qərar 150 manat maaş alan insanlar üçün çox çətin olacaq. Qazın və ya işığın həcmi ilə bağlı anlayışım yoxdur, amma atam və digər insanlar qərardan narahat oldu. Fikrimcə, bununla bağlı çıxış yolu tapılar və əgər görsələr ki, insanlar buna narazılıq edir, bəlkə də qiymətlər aşağı düşər".

Gənc yazar Kəramət Böyükçöl (Nəcəfov) isə istifadə etdiyi təbii qaz üçün 120 manat, elektrik enerjisi üçün isə ayda 50 manat xərclədiyini bildirdi.

**Jurnalist Nərgiz Liftiyeva:** "Biz böyük ailə olduğumuz üçün qaz sərfiyyatı da təbii ki, çoxdur. Həm istilik sistemi, yeni kombi qazla işləyir, həm də digər məişət işlərində qaz işlədirik. Evdə körpə uşağın olması temperaturun daim normada olmasını tələb edir. Yəni istiliyə qənaət etmək şansımız yoxdur. Ayda təxminən 25 manatlıq qaz istifadə edirik. Bu isə aylıq 250 kubmetr qaz deməkdir. Yəni bizim illik işlətdiyimiz qazın həcmi 3000 kubmetrdir. Tarif Şurasının qoyduğu göstəricidən iki dəfə çoxdur. İstifadə etdiyimiz qazın neçə kubmetr olması ilə təbii ki maraqlanmışam. Orta səviyyəli gəliri olan bir ailə kimi daim qənaət etmək məcburiyyətindəyik. O mənada bütün xərclərimizi detallı şəkildə hesablayırıq, o cümlədən də qaz və elektrik enerjisinə ayrılan xərclərimizi. Yəqin ki, bu qərardan sonra daha çox qənaət etmək məcburiyyətində qalacağıq".

❑ Xalidə GƏRAY



## Pizzacılar artıq İtaliyada pizza satmaq istəmir

Pizza deyilən kimi ağla gələn ilk ölkə İtaliya artıq pitsa şəbəkələrinin tərcihi sırasında deyil. Aparılan bir araşdırmaya görə, iri pizza firmaları artıq İtaliyada şöbə açmağa tərəddüd edir. Buna səbəb İtaliyanın pis ölkə olması deyil. Sadəcə, iş adamları hesab edirlər ki, pizzanın vətənində yeni pizza restoranı açmaq perspektiv vəd etmir. Onun əvəzində inkişaf etməkdə olan ölkələri tərcih etmək gəlirli ola bilər. ABŞ-ın ən böyük pizza şəbəkəsi olan Pizza Hutdan isə bildiriblər ki, İtaliya onların qlobal marka keçmişinə uyğun gəlmir. İtaliyada pizza bazarı keçən il ABŞ-ı ötsə də, son beş ildə göstəricilər dəyişib. Belə ki, 2008-2013-cü illərdə ABŞ-da pizza bazarı 3 faiz artıb və illik qazanc 37.5 milyard dollara çatıb. Bunun əvəzində isə İtaliyada satışlar 10 faiz azalıb. Bununla belə, adambaşına düşən pizza xərclərinə görə italyanlar amerikanları ötüb. İtalyanlar keçən il pizza restoranlarında adambaşına 457 dollar xərclədikləri halda, ABŞ-da bu rəqəm 119 dollar olub.

# Gözəllik yarışmasına hicabla qatıldı, fenomen oldu



ABŞ-ın Minnesota ştatında keçirilən gözəllik yarışmasına çarşablı bir namizəd qatılıb. Podiuma çıxan 19 yaşlı Halima Aden gözəllik yarışmalarına başıbağlı qatılan ilk namizəd oldu. Yarışmanın aparıcısı podiumda gəzən Adeni anons edərkən onun tarix yazdığını deyib. Yarışmanın bikinili bölümünə də qapalı çimərlik geyimi ilə qatılan, bununla da yarımfinala qatılan Aden deyib ki, qalib gəlmək kimi bir qayğısı yoxdur. Keniyadakı mühacir düşərgəsində dünyaya gələn və 6 yaşında ikən ABŞ-a köçən Aden deyib ki, yarışmaya qatılmaqda xüsusi məqsədi olub: "Məqsədim müsəlman qadınlarla bağlı yanlış təsəvvürləri və qəlibləri aradan qaldırmaqdır. Kim olduğumu dünyaya göstərmək üçün gözəl bir platformadır. İstədiyim insanlara fərqli bir perspektiv göstərməkdir".

# Gündə 2 qutu siqaret çəkən uşağın sonu...

İki yaşında ikən gündə 2 qutu siqaret çəkən uşaq 6 ildə bərbad hala gəlib. Ardi Rizal adlı uşaq gündə iki qutu siqaret çəkdiyinə görə dünyada tanınan bir uşaq halına gəlib. Medianın uşaq üzərindəki basqısı indoneziyalı Ardinin həyatına müsbət yöndə təsir edib və uşaq qısa müddət ərzində siqareti atıb. Amma gündə çəkdiyi 40 siqaretdən vaz keçmək o qədər də asan olmayıb. Balaca uşaq siqareti atandan sonra həddən artıq fast food yediyi üçün çəkisi artıb. 2010-cu ildə siqaret üstünə siqaret çəkən uşağın videosu internetdə sürətlə yayılıb. Hərəkətə keçən yetkililər Ardinin peşəkar yardım alması üçün səfərbər olunub. Sigareti atan uşaq bu dəfə də fast food qurbanı olub. "Independent" qəzeti yazıb ki, uşaq siqareti atandan sonra şişmanlayıb. Ardi 6 yaşına girəndə dəhşət kök idi və səhhəti bir daha təhlükə altına düşdü. Uşağın ailəsi dövlətdən yardım istədikdən qısa müddət sonra Ardiylə özəl bir qidalanma mütəxəssisi məşğul olmağa başladı.





## Keçi ördək kostyumu geyindi, olay oldu

Polli ləqəbli xəstə keçi Amerikanın Nyu-Cersi ştatında yaşayır. Onu internetdə məşhurlaşdıran isə ördək kostyumuna olan sevgisidir. Bu barədə metro.co.uk saytı xəbər verib. "Goats of Anarchy" təşkilatının sahibləri atılmış keçiləri yığır və onları ev heyvanları qismində saxlayır. Polli nevroloji problemlərdən, korluqdan və çəki çatışmazlığından əziyyət çəkir. Bundan başqa, bu keçi həddən artıq əsəbidir.

Bir dəfə sığınacağın sahibəsi supermarketə gedib və keçini də özü ilə götürüb. Onu mağazada satılan uşaqlar üçün ördək kostyumu maraqlandırıb. Sahibəsi həmin geyimi Polliyə tərəf tutanda o, ani olaraq sakitləşib. Pollini odeyala və ya futbolkaya bükəndə də ona yaxşı olur. Amma ördək kostyumu hamısından daha effektli olub. Pollinin İnstaqramdakı fotoları 15 min layk yığıb.






**QOÇ** - Yeni işgüzar əlaqələrə start vermək üçün Göy qübbəsi tərəfinizdə duracaq. Odur ki, bütün səylərinizi birləşdirməlisiniz. Günün ikinci yarısında şanslı məqamlar yaşayacaqsınız.



**BUĞA** - Böyük dəyişikliklər astanasındasınız. Qətiyyən tərəddüd etməyin. Nə qədər cəsarətli olsanız, işləriniz də bir o qədər uğurlu olacaq. Nahara qədər yeni təkliflərdən imtina etməyin.



**ƏKİZLƏR** - Qarşınızda duran vəzifələrin çoxluğu sizi yoracaq. Lakin nəticənin uğurlu olacağını nəzərə alıb passivləşməməlisiniz. Nahardan sonra pulla bağlı istənilən riskdən uzaq olun.



**XƏRÇƏNG** - Enerjinizin artdığı bir vaxtda özünüzü ələ almağa çalışın. Fikirlərinizi başa düşən adamlar arayın. Nahar ərəfəsində şəxsi büdcənizi artım gözləsə də, səhhətinizi də qorumalısınız.



**ŞİR** - Təxminən saat 15-dən sonra əsəblərinizi cilovlamağa çalışın. Boş dayanmaq olmaz. Mühüm adamlara baş çəkin ki, ulduzlar sizə sevinc bəxş etsin. Bu gün maddi gəlir də gözlənilir.



**QIZ** - Bu gün əsasən səhhətinizi qorumağa çalışın. İlk növbədə qlobal işlərin həllini, eləcə də səfərlə bağlı bütün planlarınızı təxirə salmağınız məsləhətdir. Cari sövdələşmələr səmərə verə bilər.



**TƏRƏZİ** - Səhər saatlarından başlayaraq qarşılıqlı münasibətlər zəminində, həmçinin işgüzar sövdələşmələrdə vəziyyət bir qədər gərgin olacaq. Odur ki, neytrallıq göstərin.



**ƏQRƏB** - Ulduzların düzümü maraqlı bir təqvim yaşayacağınızdan xəbər verir. Üzləşdiyiniz adamların əksəriyyəti öz zarafatları ilə ovqatınızı yüksəldəcək. Sövdələşmələr üçün də səmərəli vaxtdır.



**OXATAN** - Dünəndən mənfi enerjili Ay bürcünüzdə qərar tutduğu üçün əbəs yerə risk etməyin. Çalışın ki, ünsiyyətdə olduğunuz insanlarla münasibətləri qoruyasınız. İşgüzarlığınızı artırın.



**OĞLAQ** - Olduqca əhəmiyyətli gündür. Hansısa böyük bir işinizi həyata keçirməkdə şans qazanacaqsınız. Bununla yanaşı perspektivli görüşləriniz də mümkündür. Tanrını başınız üstündə hiss edin.



**SUTÖKƏN** - Yalnız münasibətlər zəminində uğurlarınız olacaq. Fəaliyyət və ya şəxsi işlər üçünsə sərfəli vaxt deyil. İnsanlara qarşı unutqanlığınızı dəf edin. İstirahətə daha çox yer ayırın.



**BALIQLAR** - Astroloji göstəricilər işlərinizin rəvan gedəcəyinə işarə edir. Hətta cəhd etdiyiniz təqdirdə maddi durumunuz da yaxşılaşa bilər. Axşama yaxın maraqlı görüş və sövdələşmələriniz mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Balaca qız paltaryuyan maşında qaldı



Çində yanğınsöndürənlər iki yaşlı qızı paltaryuyan maşından xilas ediblər. Bu barədə lenta.ru saytı xəbər verir. Xəbərdə qeyd edilir ki, insident Uçjun şəhərində baş verib. Zəng əsasında mənzilə gələn xilasedicilər paltaryuyan maşında ağlayan uşağı tapıblar. Onlar situasiyanı yerindəcə araşdırandan sonra qurutma barabanını maşından çıxarmağa nail olublar. Uşaq maşının içində təxminən 20 dəqiqəyə yaxın qalandan sonra xilas edilib. Qızcığaza hər hansı xətər dəyməyib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750